# Məktəblərdə könüllü ianə modeli tətbiq oluna bilər

Nazir məktəbli çantalarının ağır olması ilə bağlı narazılıqlara da münasibət bildirib



**"Valideynlərin məktəblərə könüllü şəkildə ianə verməsi ilə bağlı bir neçə model təqdim olunub".**

Bunu təhsil naziri Emin Əmrullayev ASAN Radionun "QəbulASAN" verilişində deyib. Onun sözlərinə görə, yeni tədris ilindən pilot şəkildə tətbiqi planlaşdırılır: "Məktəblər bu işə könüllü qoşula bilər. İnsanlar bunu faydasız hesab etsə, təbii ki, olmayacaq.

(səh.2)



## Türkiyə ordusu daha 10 terrorçunu məhv edib

**Türkiyə ordusu daha 10 terrorçunu məhv edib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

PKK/YPG silahlıları "Barış Pınarı", "Fərat Qalxanı" və "Zeytun budağı" əməliyyat zonalarında zərərsizləşdirilib. Türkiyə Milli Müdafiə Nazirliyi terrorçuların Türkiyə ordusunun nəzarətində olan əraziləri atəşə tutduğunu bildirib.

❒ № 73 (5595), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 aprel 2022-ci il (çərşənbə)




# Əfv Komissiyasının iclası keçirilib

## 100-dən çox müraciətə baxılıb

Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. İclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb.

*Əfv Məsələləri Komissiyasının növbəti iclası aprelin 29-da keçiriləcək.*



## "Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox müsbətdir"

Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.**

Görüşdə Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın olduğunu vurğuladı. Dövlətimizin başçısı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirdi, ÜST-nin COVID-19-a qarşı mübarizəyə dair təqdim etdiyi tövsiyələrin ölkəmiz üçün dəyərli olduğunu qeyd etdi.

(səh.2)

## Putin: "Rusiya Ukrayna ilə danışıqlardan imtina etmir"



**Moskva Kiyevlə danışıqlardan imtina etmir və diplomatik yolla razılaşmaların əldə olunacağına ümid edir.**

Trend-in məlumatına görə, bu barədə Rusiya prezidenti Vladimir Putin BMT-nin baş katibi Antonio Quterreşlə görüşü zamanı deyib.

"Biz ümid edirik ki, diplomatik yolda da razılığa gələ biləcəyik. Biz danışıqlar aparırıq, onlardan imtina etmirik", - deyə Rusiya prezidenti bildirib.

# Ərdoğanı ağır vasitəçilik missiyası gözləyir

## Rusiya və Ukraynanın yenidən normal həyata dönüşü məhz Türkiyə liderinin səylərindən asılı olacaq



**Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı baş tutub. Tərəflər Ukraynadakı vəziyyəti müzakirə ediblər. Xatırladaq ki, Ərdoğanla Ukrayna rəhbəri V.Zelenski arasında da telefon əlaqəsi olub.**

Zelenski türkiyəli həmkarı ilə keçirdiyi telefon danışığında mühüm məsələləri müzakirə etdiklərini vurğulayıb: "Prezident Rəcəb Tayyib Ərdoğanla mühüm danışığımız oldu. Mariupoldakı son vəziyyəti, dinc əhalinin və yaralıların təxliyəsi, zərərsizləşdirilən Ukrayna ordusunun təcili yenilənməsi barədə danışdıq. Biz Rusiya ilə danışıqlar prosesini və müdafiə sahəsində də müzakirələr apardıq. Qara dəniz limanlarını bağlayan Rusiyanın dünya ərzaq bazarına yaratdığı təhlükələri də ətraflı müzakirə etdik. Artıq bir çox ölkələrdə ərzaq qiymətlərinin artması kritik həddə çatıb. Amma bu hələ başlanğıcdır". Zelenski Rusiya-Ukrayna müharibəsi ilə bağlı son hadisələri diqqətə çatdırıb.

(səh.4)

# Ərzaq qıtlığı təhlükəsi realdır

"Elə edilməlidir ki, xalqımız çörəklə imtahana çəkilməsin"



**"Zəfər Qurultayının Şuşada keçirilməsinin rəmzi mənası var".**

Bunu Milli Məclisin dünən keçirilən plenar iclasında parlamentin sədri Sahibə Qafarova deyib. Spiker bildirib ki, Azərbaycan dünyanın diqqətini özünə cəlb edir:

"Prezident İlham Əliyev qurultayda geniş məzmunlu nitq söyləyib. Bu nitq hər birimiz üçün qarşıdakı dövr üçün əsas məyarları müəyyən edib. Prezident İlham Əliyev bir daha bəyan etdi ki, biz Cənubi Qafqazda faşizmi məhv etdik".

(səh.3)



## ABŞ-ın vitse-prezidenti koronavirusa yoluxub

**ABŞ-ın vitse-prezidenti Kamala Harris COVID-19-a yoluxub.**

Bu barədə "Associated Press" agentliyi Ağ Evə istinadən bildirib.

K.Harris xəstəliyi simptomsuz keçirir. Ağ Ev qeyd edib ki, son günlərdə nə ABŞ prezidenti Co Bayden, nə də onun həyat yoldaşı xəstə şəxslə "birbaşa təmasda" olmayıb.

ABŞ-ın vitse-prezidenti özünü təcrid edəcək, lakin distant rejimdə işləməyə davam edəcək.

## Musa Yaqubun qəbirüstü abidəsi ucaldıldı

**Dünən mərhum Xalq şairi Musa Yaqubun qəbirüstü abidəsi ucaldılıb.**




APA xəbər verir ki, heykəlin müəllifi Xalq rəssamı Natiq Əliyevdir.

Qeyd edək ki, Musa Yaqub ötən il mayın 7-də İsmayıllı rayonunun Buynuz kəndində vəfat edib. O, vəsiyyətinə uyğun olaraq kənd qəbiristanlığında, həyat yoldaşının yanında torpağa tapşırılıb.

## Ölən yoxdur

Azərbaycanda 19 nəfər COVID-19-a yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 19 yeni yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb.**



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 26.04.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 792 521 | Yeni yoluxanların sayı | 19 |
| Ümumi sağalanların sayı | 782 675 | Yeni sağalanların sayı | 25 |
| Aktiv xəstə sayı | 139 | Bugünkü test sayı | 4 132 |
| Ümumi test sayı | 6 801 484 | Bugünkü ölüm sayı | 0 |
| Ümumi ölüm sayı | 9 707 | | |



Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 792 521 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 675 nəfər müalicə olunaraq sağalıb, 9 707 nəfər vəfat edib, aktiv xəstə sayı 139 nəfərdir.

Ölkədə son sutka ərzində 4 132, hazırkı dövrədək isə 6 801 484 test aparılıb.



## Peşə təhsili alanlara da hərbi xidmətdən möhlət verilməlidir

Təhsil eksperti millət vəkilinin təklifini yüksək qiymətləndirib

(səh.3)



## "Heç kim "Tiktok"da pulunu çölə atmır"

Yutuber Bahadur Seyidov: "Pərvin Abıyeva 24 saat canlı yayımda yatsa belə 35 min dollar qazana bilməz"

(səh.5)



# "Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox müsbətdir"

## Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.**

Görüşdə Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın olduğunu vurğuladı. Dövlətimizin başçısı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirdi, ÜST-nin COVID-19-a qarşı mübarizəyə dair təqdim etdiyi tövsiyələrin ölkəmiz üçün dəyərli olduğunu qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox müsbətdir, həyata keçirilmiş tədbirlər nəticəsində pandemiyanın çətin dövründə vəziyyət nəzarətdə saxlanılıb. Azərbaycan keçən ilin əvvəlində vaksinasiyaya başlayan ilk ölkələrdən biri olub, indiyədək ölkəmizdə 13 milyondan artıq vaksin istifadə edilib. Azərbaycanda vaksinasiya prosesi anlayışla qarşılanıb. Dövlətimizin başçısı bunun vətəndaşlarımız tərəfindən dövlətin həyata keçirdiyi siyasətə etimadın bir nümunəsi olduğunu dedi.

Ölkəmizdə pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən aradan qaldırıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, çox az sayda məhdudiyyətlər qalıb, bunu da Azərbaycan ictimaiyyəti anlayışla qarşılayır.

Azərbaycanın COVID ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətini daim dəstəklədiyini bildirən dövlətimizin başçısı vurğuladı ki, həm Qoşulmama Hərəkatında, həm də BMT Baş Assambleyasında çıxışları zamanı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə rolunu xüsusilə qeyd edib.

Prezident İlham Əliyev dedi ki, Azərbaycanda pandemiya nəticəsində yaranan sosial-iqtisadi məsələlərin aradan qaldırılması istiqamətində də dövlətimiz tərəfindən zəruri tədbirlər görülüb və hazırda bu sahədə də vəziyyət sabitdir.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru kimi Azərbaycana ilk dəfə gəldiyini vurğulayan Hans Henri Kluge səfərinin Azərbaycanla BMT arasında tərəfdaşlığın 30 illiyinin qeyd olunduğu bir dövrə təsadüf etməsi baxımından önəmini vurğuladı. Hans Henri Kluge dedi: "Mən Sizin beynəlxalq diplomatiyada qlobal liderliyinizi yüksək qiymətləndirir və bu münasibətlə Sizi səmimi qəlbdən təbrik edirəm. Sizin davamlı inkişaf istiqamətində çox mühüm fəaliyyətiniz olduqca önəmlidir. Çünki məhz Sizin şəxsi liderliyiniz sayəsində COVID-19 pandemiyasına qarşı beynəlxalq həmrəylik təbliğ edilib və bu məsələ BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatının - Qoşulmama Hərəkatının gündəliyinin əsas məsələsi olub".

> "Çox az sayda məhdudiyyətlər qalıb, bunu da Azərbaycan ictimaiyyəti anlayışla qarşılayır"

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin bir il uzadılmasını dövlətimizin başçısına olan etimadın göstəricisi kimi dəyərləndirdi və bu münasibətlə də təbriklərini çatdırdı.

Hans Henri Kluge Azərbaycanla əməkdaşlığın çox uğurlu olduğunu vurğuladı və rəhbərlik etdiyi təşkilatın bu əməkdaşlığın bundan sonra da davam etdirilməsi istiqamətində səylər göstərəcəyini bildirdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş onlayn Zirvə görüşünə toxunaraq, məhz Azərbaycan Prezidentinin rəhbərliyi sayəsində həmin Sammit zamanı ÜST-nin rolunun yüksək qiymətləndirildiyini dedi, eyni zamanda, humanitar və tibbi ehtiyaclar üzrə informasiya bazasının yaradılmasına və ÜST vasitəsilə Qoşulmama Hərəkatının COVID-dən ən çox əziyyət çəkmiş 10 ölkəsinə Azərbaycanın 10 milyon dollar məbləğində vəsait yönəltdiyinə görə minnətdarlığını bildirdi.

Qonaq dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə BMT Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr edilən Xüsusi Sessiyasını, Prezident İlham Əliyevin BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində, həmçinin BMT Baş Assambleyasında vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olduğunu, Azərbaycanın Türk Şurası çərçivəsində Zirvə toplantısının gündəliyinə də COVID-ə qarşı mübarizə məsələsini daxil etdiyini vurğuladı.

Hans Henri Kluge Azərbaycanın COVID-19-a qarşı milli səviyyədə həyata keçirdiyi tədbirlərin də çox təqdirəlayiq olduğunu bildirdi, Azərbaycanda COVID-lə bağlı vəziyyətin daim nəzarətdə saxlanıldığını, dövlətimiz tərəfindən zəruri və ardıcıl tədbirlər görüldüyünü qeyd etdi. O, həmçinin Azərbaycanın həyata keçirdiyi vaksinasiya siyasətinin də çox uğurlu olduğunu bildirdi.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan ilə əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətində olduğunu dedi. Təşkilatın Azərbaycanda hazırda səhiyyə sistemində aparılan islahatlara yaxından töhfə verməyə hazır olduğunu deyən qonaq bildirdi ki, ölkəmizdə rəqəmsal və elektron səhiyyə sistemlərinin qurulması istiqamətində görülən tədbirlər də çox müsbətdir.

Hans Henri Kluge qeyd etdi ki, Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirəcəyi səhiyyə sisteminin qurulması prosesində, xüsusilə rəqəmsal səhiyyə sisteminin yaradılmasında Ümumdünya Səhiyyə Təşkilatı töhfəsini verməyə və Azərbaycan ilə yaxından əməkdaşlığa hazırdır. Vurğuladı ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində səhiyyə xidmətlərini təqdim edən regional mərkəzlərdən birinə çevrilə bilər.

# Regionda sülhün yaradılması istiqamətində addımlar atılır

## Bayramov amerikalılarla Ermənistanla münasibətlərin normallaşdırılmasını müzakirə edib



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonu qəbul edib.**

Xarici İşlər Nazirliyi xəbər verir ki, görüşdə, həmçinin ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer də iştirak edib.

ABŞ rəsmisi ölkəsinin bölgədəki səfirlərinin Bakıda görüşünün keçirilməsi ilə bağlı nümayiş etdirilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib.

Görüşdə tərəflər ikitərəfli münasibətlərin inkişafı, habelə bölgədə mövcud olan cari vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar barədə fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov postmünaqişə mərhələsində iki ölkə arasında normallaşma, o cümlədən gələcək sülh müqaviləsinin işlənib hazırlanması, sərhədin delimitasiyası, bölgədə bütün kommunikasiya xətlərinin açılması və etimad quruculuq tədbirləri istiqamətlərində atılan addımlar barədə məlumat verib.

Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün tərəflər arasında əldə edilmiş razılaşmaların həyata keçirilməsinin vacibliyi və Azərbaycanın öz növbəsində qeyd olunan bütün istiqamətlər üzrə irəliləməyə hazır olduğu vurğulanıb.

Görüşdə həmçinin Ukraynadakı vəziyyət, qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib.

# Məktəblərdə könüllü ianə modeli tətbiq oluna bilər

## Nazir məktəbli çantalarının ağır olması ilə bağlı narazılıqlara da münasibət bildirib



**"Valideynlərin məktəblərə könüllü şəkildə ianə verməsi ilə bağlı bir neçə model təqdim olunub".**

**Bunu təhsil naziri Emin Əmrullayev ASAN Radionun "QəbuldASAN" verilişində deyib.**

Onun sözlərinə görə, yeni tədris ilindən pilot şəkildə tətbiqi planlaşdırılır: "Məktəblər bu işə könüllü qoşula bilər. İnsanlar bunu faydasız hesab etsə, təbii ki, olmayacaq. Dünyanın hər yerində bu tipli assosiasiyalar var. Məqsəd pul yığımı yox, məktəblə valideyn arasında məsələləri tənzimləməkdir. Qanunvericiliyimiz də bildirir ki, məktəb hansı sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Yəni məktəb daxilində ödənişli xidmətlər ola bilər. Müəllimə əlavə bonusu valideyn verə bilməz. Bu, qanuna ziddir. Dövlət hər bir məktəbdə hər arzunu reallaşdıra bilməz. Müəyyən işlər üçün məktəbə könüllü ianə mümkündür".

**Təhsil naziri şagirdlərin məktəbli çantalarının ağır olması ilə bağlı narazılıqlara aydınlıq gətirib.**

O, deyib ki, bu ildən ibtidai siniflər üzrə dərsliklər yarım illərə bölünüb.

E.Əmrullayev bildirib ki, nazirlik dərs yükünün azaldılması istiqamətində əlindən gələni edir: "Müşahidələrimiz göstərir ki, bəzən də lazım olmayan yük əsassız şəkildə çantalara yüklənilir. Həmin əlavələr nə tədrisin keyfiyyəti, nə də uşağın gələcəyi üçün lazım deyil. Həmçinin qidalanma, su da var. Digər səbəblərdən biri də bəzi məktəblərin tələb etdiyi əlavə vəsaitlərdir. Heç də hər gün məktəbə aparılmayan əlavələrdir. Bu da məktəb səviyyəsində həll olunmalıdır. Nazirlik hər bir uşağın çantasını yoxlamaq iqtidarında deyil".

"Dərslik və iş dəftərlərini yarı-yarıya bölmüşük. Bu, bir addımdır. Hesab edirəm ki, həmin vəsaitlər verilən proqramı mənimsəməyə kifayətdir. Müəllim əlavə vəsaitdən istifadə edə bilər, ancaq hər gün uşaq onu çantasında daşımalıdır deyə bir şey yoxdur. Bu məsələnin ailə və məktəb arasında ünsiyyətlə tənzimlənməsi məqsədə uyğundur", - o deyib.





# "Avropa İttifaqının da Minsk qrupuna yaxın mövqe tutma ehtimalı var"

## "Əgər bu qurum Ermənistanın yanında dayansa, Rusiyanın vasitəçiliyi daha əlverişlidir"

**Aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Baş nazirinin müavini Aleksey Overçukla görüşüb. Dövlət başçısı ölkələrimiz arasında ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu vurğulayaraq, daha əvvəl əldə edilmiş razılıqların yerinə yetirilməsindən məmnunluğunu bildirib.**

Aleksey Overçuk Rusiya ilə Azərbaycan arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyini məmnunluqla xatırladıb.

Görüşdə ticari-iqtisadi, nəqliyyat, tranzit, logistika, maliyyə, bank, energetika, neft-qaz sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd edək ki, Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının iclası çərçivəsində bir sıra sənədlər imzalanıb. Sənədləri Azərbaycan tərəfindən Baş nazirin müavini Şahin Mustafayev, Rusiya tərəfindən Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuk imzalayıb. Azərbaycanla Rusiya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 20-ci iclasının protokolu, iki ölkə arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanıb.

**Mövzu ilə bağlı "Şərq"ə danışan "Azərbaycan Naminə Alyans" Partiyasının sədri Abutalıb Səmədovun sözlərinə görə, Rusiya özünü regionun əsas söz sahibi olan dövlət kimi aparır:**

"Son bir ildən artıq müddətdə imzalanan sənədlər Rusiyanın vasitəçiliyi ilə gerçəkləşib. 10 Noyabr Bəyanatının imzalanmasında vasitəçi təkcə Rusiya yox, görünməyən tərəf kimi Türkiyə idi. Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişini də Rusiya öz vasitəçiliyi ilə imzalatmaq istəyir. Minsk qrupundan sonra onun rəqibi artıq Avropa İttifaqıdır (Aİ). Ortada iki vasitəçi var: Aİ və Rusiya.

Azərbaycan Minsk qrupu fəaliyyət göstərdiyi dönəmdə Rusiyanın vasitəçiliyini istəyirdi. Soçidə Azərbaycan Prezidenti duruma dair münasibətini bildirmişdi. Ermənistan Minsk qrupunu istəyir, çünki Fransa və ABŞ var. Onlar Ermənistanın mövqeyini müdafiə edirlər. İndi maraqlıdır, Aİ hansı mövqedə dayanar və bizə kimin vasitəçiliyi daha sərfəlidir? Aİ-nin, ABŞ və Fransanın təsiri altında olduğunu nəzərə alsaq, güman edirəm ki, onun da Minsk qrupuna yaxın mövqe tutma ehtimalı var. Amma ölkəmizin maraqlarına cavab vermir.

Əgər Aİ Azərbaycanın mövqeyini müdafiə etsə, Ermənistan da sülh sazişinə Qarabağ məsələsini salmayacağını dediyi təqdirdə, biz də vasitəçinin Aİ olmasında maraq duyarıq. Əgər Ermənistanın yanında dayansa, Rusiyanın vasitəçiliyi daha əlverişlidir.

Rusiyanın vasitəçi olduğu yerdə Türkiyə də var. Aİ-nin tutacağı mövqedən çox şey asılıdır. Azərbaycan kifayət qədər güclü mövqedədir. Vasitəçi seçmək imkanı onun əlindədir. Hansı daha ədalətli, düzgün mövqe tutarsa, ölkəmiz də ona üstünlük verər. Hələlik Rusiyanın vasitəçiliyini üstün sayır.

Rusiyanın Qarabağ məsələsində tutduğu mövqeyini dəyişdirməyəcəyini ümid edirəm. Sülh sazişi onun vasitəçiliyi və Türkiyənin aktiv iştirakı ilə imzalanar".

**Aygün Tahir**

# Çavuşoğlu nə etdiyini gözəl bilir

## "Bozqurd" işarəsi ermənilərin yuxusuna haram qatıb

**İsmayıl Qocayev**



> "Əsl terrorçuların kim olduğu, tarix boyu teraktların kimlər tərəfindən törədildiyi hamıya məlumdur"

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun səfərdə olduğu Uruqvayda ona etiraz edən ermənilərə "bozqurd" işarəsi göstərməsi Ermənistanda ciddi reaksiyaya səbəb olub.**

Ermənilər "bozqurd" işarəsini "terrora dəstək" kimi təqdim ediblər. Hətta məsələ Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yaz sessiyasının plenar iclası zamanı erməni deputatlar tərəfindən gündəmə gətirilib. Ermənistan nümayəndə heyətinin üzvü Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun Uruqvayda ermənilərə göstərdiyi "bozqurd" işarəsini mənfi şəkildə şərh edərək, müzakirələri əsas məqsəddən uzaqlaşdırmağa cəhd göstərib. Lakin türk və azərbaycanlı deputatlar tərəfindən erməni parlamentarinin bu cəhdinin qarşısı alınıb və o, tutarlı cavabını alıb. Ölkəmizin AŞ PA-dakı nümayəndə heyətinin üzvü, deputat Kamal Cəfərov erməni həmkarının ittihamlarına səssiz qalmayıb. K.Cəfərov bildirib ki, Çavuşoğlunun göstərdiyi "bozqurd" işarəsi qədim türk totemidir. Qeyd edib ki, hətta Amerikanın keçmiş prezidenti Barak Obama da "bozqurd" işarəsindən istifadə edib. Ona görə də bununla bağlı heç bir problem yoxdur. Deputat çıxışın sonunda özü də "bozqurd" işarəsi göstərib.

**Türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə bildirib ki, Türkiyə XİN rəhbəri M.Çavuşoğlunun saxta "soyqırım" iddiasında olanlara "bozqurd" işarəsi göstərməsi ermənilərə ən tutarlı cavabdır. Alimə görə, erməni təxribatçılarını ancaq "bozqurd" simvolu ilə susdurmaq olar:** "Qondarma "soyqırım" hay-küyü salan ermənilərə və onlara dəstək verən Qərb ölkələrinə ancaq "bozqurd" işarəsi ilə cavab verilməlidir. Çünki onlar başqa cavablardan anlamırlar. Düşünürəm ki, Çavuşoğlu məhz buna görə belə hərəkət edir. Məncə, normal və doğru bir addım idi. Buna görə Türkiyə xarici işlər nazirini "terrora dəstək verməkdə" ittiham etmək absurd yanaşmadır. Türkiyənin XİN başçısı nə etdiyini çox gözəl bilir. Əsl terrorçuların kim olduğu, tarix boyu teraktların kimlər tərəfindən törədildiyi hamıya məlumdur. Ermənilər qondarma "soyqırımı" siyasi oyun vasitəsinə çeviriblər. İndi də Çavuşoğlunu və Türkiyəni hədəf almaqla siyasi məqsədlər güdürlər. Qardaş Türkiyə doğru yoldadır".

# Ərzaq qıtlığı təhlükəsi realdır

## "Elə edilməlidir ki, xalqımız çörəklə imtahana çəkilməsin"



**"Zəfər Qurultayının Şuşada keçirilməsinin rəmzi mənası var". Bunu Milli Məclisin dünən keçirilən plenar iclasında parlamentin sədri Sahibə Qafarova deyib. Spiker bildirib ki, Azərbaycan dünyanın diqqətini özünə cəlb edir:**

"Prezident İlham Əliyev qurultayda geniş məzmunlu nitq söyləyib. Bu nitq hər birimiz üçün qarşıdakı dövr üçün əsas meyarları müəyyən edib. Prezident İlham Əliyev bir daha bəyan etdi ki, biz Cənubi Qafqazda faşizmi məhv etdik".

**"Biz o şəhərlərdə hər kəsin əməlini öz adı ilə yazıb tarixiləşdirəcəyik"**

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, beynəlxalq qurumlara çağırış edib.** Deputat bildirib ki, Qarabağın bərpasına 100 milyardlarla manat vəsait gərəkdir. Onu tək bir dövlət qarşılaya bilməz: "Elə isə nə üçün Türk Dövlətləri Təşkilatı xeyirxah bir aksiya keçirmir? Yaxud, islam ölkələrinin xüsusi fərqlənməsi hazırkı müqəddəs Ramazan ayının xeyirxahlıq, mərhəmət prinsiplərinə uyğun olmazmı? Minaların təmizlənməsinə hərəsi çox yox, 10 milyon dollarlıq yardım etsə, tarixi Mina dağını ziyarət etmiş olarlar! O cümlədən, Amerikada general Corc Marşalın əməl varisləri Qarabağda azad edilən torpaqlarda bir küçənin bərpasını üzərlərinə götürə bilməzlərmi? 100 il əvvəl Xəzər dənizinə donanma ilə gələn general Tomsonun Qarabağda yeganə ali hakimiyyət rəhbəri kimi tanıdığı Xosrov bəy Sultanova münasibətini indi Britaniya hökuməti təkrarlasa, Şuşada bir məhəllənin quruculuğunu öz üzərlərinə götürsə, ədalətli olmazmı? Biz o şəhərlərdə hər kəsin əməlini öz adı ilə yazıb tarixiləşdirəcəyik. Ona görə də ölkə rəhbərinin Qarabağın Quruculuğuna Beynəlxalq Yardım Fondunun yaradılması ideyasını hər birimiz müdafiə edirik. Son 30 ildə və 44 günlük müharibədə o dövlətlərin davranışları nə olubsa, indi bərpa və yenidən məskunlaşmaya, Böyük Qayıdışa də eyni münasibəti görürük".

**Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov deyib ki, dünyada taxılın ixracında birinci yerdə Rusiya, beşinci yerdə Ukrayna dayanır. Deputat bildirib ki, bu gün bu iki dövlət müharibə aparır və müharibənin sonu görünmür:** "Belə reallıqda ərzaq qıtlığı təhlükəsi realdır. Prezident İlham Əliyevin müşavirədə dediyi kimi, Azərbaycan 75 faiz ərzaq taxılını başqa ölkələrdən idxal etmək məcburiyyətindədir. Bu gün Rusiyadan 780 min ton taxıl alırıq. Yəni bir ölkədən taxıl idxalında bu qədər çox asılılığın olması qənaətbəxş hal deyildir. Qazaxıstan isə taxıl ixracına kvota tətbiq edir. Bu, bizim taxıl istehsalçılarını çox ciddi düşündürməlidir. Taxıl məhsulu istehsal edən sahibkarlara subsidiyaların həcmi artırılmalıdır. Elə edilməlidir ki, xalqımız belə gözlənilməz situasiyalarda çörəklə imtahana çəkilməsin".

**"Parlament hesabatı bəyənməzsə, Nazirlər Kabineti, nazirlər istefa verməlidir"**

**Millət vəkili Qüdrət Həsənquliyev deyib ki, qanunda hesabatlara mənfi rəy verilərsə, bunun hansı nəticələrə gətirib çıxaracağı bilinmir.** Deputat bildirib ki, məsələn, Nazirlər Kabinetinin hesabatını Milli Məclis qənaətbəxş hesab etməzsə, bunun hansı hüquqi nəticələr doğuracağı bilinmir: "Mən hesab edirəm ki, hesabata mənfi rəy verilən zaman Nazirlər Kabineti bütövlükdə istefa verməlidir. Bizim komitələrdə nazirliklərin fəaliyyətləri ilə bağlı nazirlərlə də dinləmələr keçirilir. Hətta əgər nazirlərin hesabatı, fəaliyyəti də dinləmə zamanı parlamenti qane etməzsə, o nazirlər istefaya göndərilməlidir. Biz bu istiqamətdə qanunvericiliyi təkmilləşdirməliyik. Bu həm Milli Məclisin rolunun, həm də dövlət orqanlarının məsuliyyətinin artırılmasına öz təsirini göstərmiş olar".

**"İnklüziv təhsil mürəkkəb prosesdir, diskriminasiya halları var"**

**Millət vəkili Elşad Mirbəşiroğlu isə vurğulayıb ki, sağlamlıq imkanları məhdud şəxslərin təhsil imkanlarının genişləndirilməsi üçün hələ də dəyişikliklərə ehtiyac var:** "Sağlamlığı tam yerində olan və həddindən artıq istedadlı şagirdlərin sinif yoldaşları tərəfindən diskriminasiyaya məruz qalması hallarına rast gəlinir. Buna da diqqət yetirmək lazımdır. İnklüziv təhsilin təşkil olunması tək bizdə yox, bütün dünyada mürəkkəb prosesdir. Bu təhsili həyata keçirən müəllimlərin də xüsusi hazırlıq keçməsinə ehtiyac var. Son dövrlər ölkəmizdə bu istiqamətdə müzakirələr aparılır".

**"İşəgötürənlər tələb kimi ali təhsil diplomu tələbi qoyurlar"**

**Deputat Tural Gəncəliyev azad olunmuş ərazilərdə işəgötürənlərin diplom tələb etməsindən şikayətlənib:** "Hazırda azad edilən ərazilərdə quruculuq, bərpa işləri çox sürətlə həyata keçirilir. Quruculuq işlərində peşə təhsilli gənclərə çox ehtiyac olacaq. İşəgötürənlər tələb kimi ali təhsil diplomu tələbi qoyurlar. İşəgötürənlər peşələrlə bağlı ali təhsil diplomunun olmasını şərt kimi qoymasınlar. Bu, "Peşə təhsili haqqında" qanuna da uyğun deyil".

**"Əmək pensiyaları ilə bağlı qanuna dəyişiklikdən 17-20 min vətəndaş faydalanacaq"**

**Millət vəkili Musa Quliyev deyib ki, əmək pensiyaları ilə bağlı qanuna dəyişiklikdən 17-20 min vətəndaş faydalanacaq.** Deputat bildirib ki, qanun layihəsinə təklif olunan dəyişikliklərdə kişilərin və qadınların pensiyaya çıxma yaşının unifikasiyası, çoxuşaqlı ailələrə güzəştlərin artırılması, eyni zamanda pensiyaya çıxma şərtlərinin sadələşdirilməsi kimi məsələlər yer alır: ""Əmək pensiyaları haqqında" qanuna dəyişikliklər qəbul olunduqdan sonra ondan 17-20 min vətəndaş faydalanacaq və bunun üçün 4,2 milyon manat əlavə maliyyə vəsaiti tələb ediləcək".

**İsmayıl Qocayev**



# Media islahatları müzakirə olundu

## Əhməd İsmayılov ölkəmizdə səfərdə olan ATƏT-in media azadlığı üzrə nümayəndəsi Teresa Ribeiro ilə görüşüb

**26 aprel tarixində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində İcraçı direktor Əhməd İsmayılov ölkəmizdə səfərdə olan ATƏT-in media azadlığı üzrə nümayəndəsi Teresa Ribeiro ilə görüşüb.**

"Şərq" xəbər verir ki, Ə.İsmayılov respublikamızda media sahəsində həyata keçirilən islahatların gedişatından danışıb. O, "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli Fərmanının müvafiq sahədə islahatların yol xəritəsi olduğunu vurğulayıb.

Fərmandan irəli gələrək normativ hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması istiqamətində görülən çoxşaxəli və kompleks tədbirlərin mahiyyəti və əhatə dairəsindən bəhs edilib.

İcraçı direktor qonağın diqqətinə çatdırıb ki, bu il fevralın 8-də Prezident İlham Əliyev "Media haqqında" Qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb. Bildirib ki, Qanunun məqsədi yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə Azərbaycanda jurnalist peşəsinin nüfuzunun yüksəldilməsinə şəraitin yaradılmasıdır.

Teresa Ribeiro Azərbaycanda media sahəsində aparılan islahatlar və "Media haqqında" Qanun barədə ətraflı məlumatın təqdim edilməsinə görə təşəkkürünü bildirib, islahatlarla bağlı fikirlərini bölüşüb. Görüşdə bəhs olunan məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

# Vahid Əhmədov tələb etdi

## "Sputnik-Azərbaycan"ın fəaliyyəti dayandırılmalıdır



**"Sputnik-Azərbaycan"ın fəaliyyəti qadağan edilməlidir". Bunu Milli Məclisin dünənki iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov deyib.** Azərbaycan saytlarına Rusiyada qadağa qoyulmasına münasibət bildirən deputat ölkəmizdə "Sputnik-Azərbaycan" agentliyinin fəaliyyət göstərməsinə etiraz edib: "Bu yaxınlarda Abxaziyada, Osetiyada fəaliyyət göstərən bir generalı gətirib bu kanala rəhbər təyin ediblər. Kanalın, agentliyin fəaliyyəti dayandırılmalıdır. Mən buradan Media Agentliyinə və Mətbuat Şurasına müraciət edirəm. "Sputnik-Azərbaycan"ın fəaliyyəti araşdırılsın və bu agentliyin fəaliyyəti Azərbaycanda qadağan edilsin".

Deputat ölkədəki süni qiymət artımlarından da söz açıb: "Süni qiymət artımı çox ciddi problemə çevrilib. Çox ciddi tədbirlər həyata keçirilməlidir. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bəzi işlər görür. Amma bu işlər geniş vüsət almalıdır".

**İsmayıl**

# Peşə təhsili alanlara da hərbi xidmətdən möhlət verilməlidir

## Təhsil eksperti millət vəkilinin təklifini yüksək qiymətləndirib



## "Bu hal baş verərsə gənclərin kütləvi şəkildə peşə təhsilinə yönəlməsinə gətirib çıxaracaq"

**Şəymən**

**Milli Məclisin dünənki iclasında deputat Etibar Əliyev peşə təhsil müəssisələrində təhsil alan şəxslərə hərbi xidmətə çağırışdan möhlət verilməsini təklif edib.**

Deputat bildirib ki, peşə məktəblərində təhsil alan şəxsləri tədris prosesinin ortasında hərbi xidmətə çağırırlar. Onların böyük bir hissəsi hərbi xidmətdən geri qayıtdıqdan sonra təhsilini davam etdirmirlər: "Təhsil Nazirliyi yanında Peşə Agentliyi yarandıqdan sonra peşə təhsilinin inkişafına müəyyən təkan verdi. Lakin bir müddət sonra durğunluq yarandı. Altı il ərzində Agentliyin 5 direktoru dəyişib. Bu, idarəetmədə ciddi boşluqların yaranmasına səbəb olub. Bu il 11-ci sinifdə olan 92673 şagirddən 23650 nəfər 0-50 arasında bal toplayıb. Ölkədə savadsızlıq tüğyan edir. Fərz edək bu şəxslər peşə məktəbinə üz tutdular, onda orada necə təhsil alacaqlar?".

**Təhsil eksperti Kamran Əsədovun fikrincə, peşə təhsili alanlara təklif edilən həqiqi hərbi xidmətdən möhlət hüququ verilərsə, peşə təhsili alan tələbələrin fasiləsiz təhsil alma hüququ təmin olunacaq.**

O, texniki peşə təhsilinin bütövlükdə təhsil sisteminin aparıcı istiqaməti olmaqla, cəmiyyətin sosial-mənəvi və iqtisadi inkişafında fərdlərin iştirakını təmin etdiyini bildirib: "Peşə təhsili üçün təklif edilən dəyişikliyin qəbulu müsbət nəticələr verə bilər. Peşəyönümlü ixtisaslar ətraf mühitə təsir etmək imkanlarını artırır, insanları yeni biliklərə yiyələnməyə istiqamətləndirir, peşəkar fəaliyyətdə davamlı inkişafa nail olmaqda real köməklik göstərir. Ona görə, hərbi xidmətdən möhlət hüququnun verilməsi ilə bu təhsildə qırılma olmayacaq. Bu da müxtəlif peşə üzrə yüksək keyfiyyətli mütəxəssislərin hazırlanması deməkdir".

Qərb hökumətlərinin peşə məktəblərinin inkişafı üçün hər cür şərait yaratdığını deyən K.Əsədov Avropada hər il yeniyetmələrin 20-25 faizinin peşə təhsilinə yönəldiyini qeyd edib. Onun sözlərinə görə, Azərbaycanda bu rəqəm 10 faizin altındadır: "Müasir Azərbaycan gənclərinin peşə təhsili müəssisələrini seçməməsinin bir səbəbi də onların təhsil aldıqları müddətdə hərbi xidmətdən azad edilməməsi idi. Bu pillədə təhsil alanlara da möhlət hüququnun verilməsi gənclərin kütləvi şəkildə peşə təhsilinə yönəlməsinə gətirib çıxaracaq".

**İsmayıl Qocayev**





**Millət vəkili Məlahət İbrahimqızı Milli Məclisin dünənki iclasında maraqlı təkliflə çıxış edib. Deputat bildirib ki, Zəngəzur dəhlizinin Laçına birləşən hissəsinə Xosrov bəy və Sultan bəy Sultanovların adı verilsin.**

Parlament üzvü xatırladıb ki, Türkiyə parlamentində Türkiyənin Ermənistanla sərhədindəki Akkaya sərhəd-keçid məntəqəsinə "Tələt Paşa qapısı" adını verilməsi qaldırılıb: "Zəngəzur ictimaiyyətinin bir qrup ziyalısı mənə müraciətlər edib. Müraciətdə Zəngəzur dəhlizinin Laçına birləşən hissəsinə

# Tarixi ədalət bərpa olunmalıdır

## Xosrov bəy Sultanov AXC süqut etdikdən sonra da Qarabağın azadlığı uğrunda mübarizə aparıb

1905-1906 və 1918-ci ildə azərbaycanlılara qarşı kütləvi qətliam törədən erməni faşizminin təmsilçiləri Qaregin Njdeyə, Andranik Ozanyana qarşı mübarizə aparan Xosrov bəy və Soltan bəy Sultanov qardaşlarının adının verilməsi təklif olunub". Millət vəkili Zəngəzur ictimaiyyəti tərəfindən irəli sürülmüş bu təklifin Milli Məclisdə dəstəklənməsini və qəbul edilməsini xahiş edib.

**Parlamentarinin təklifini "Şərq"ə dəyərləndirən tarixçi-alim, professor Nəsiman Yaqublu deyib ki, Sultanov qardaşlarının, xüsusilə Xosrov bəy Sultanovun Azərbaycan tarixində böyük xidmətləri olub.** Alim vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xosrov bəy Sultanov rəsmi şəkildə Qarabağın general-qubernatoru vəzifəsini icra edib. Eyni zamanda Cümhuriyyət dövründə ilk hərbi nazirimiz olub: "Qarabağ bölgəsinin ermənilərdən, erməni separatçılarından, terrorçu və quldurlardan təmizlənməsində Xosrov bəyin əvəzsiz xidmətləri olub. Təbii ki, Sultan bəy Sultanovun da xidmətləri danılmazdır. Amma Xosrov bəy dövlət tərəfindən təyin olunmuş şəxs kimi bölgədə Cümhuriyyətin tapşırıqlarını həyata keçirib. Ərazimizin bütövlüyü uğrunda mübarizə aparıb. Qarabağda əmin-amanlığın yaradılmasında böyük xidmətləri olub. O, Şuşanı Qarabağın mərkəzi edib. Şuşada axtarış aparılarsa, fəaliyyət göstərdiyi binanı, onun yerini tapmaq mümkündür".

N.Yaqublu vurğulayıb ki, Xosrov bəy Sultanov AXC süqut etdikdən sonra da Qarabağın azadlığı uğrunda mübarizə aparıb: "Silahlı üsyanların təşkilatçılarından olub. Türkiyədən İrana, oradan Laçına gəlib. Zəngəzurda gedən müqavimət hərəkatına rəhbərlik edib. Xosrov bəy Qarabağın general-qubernatoru olarkən Zəngəzur bölgəsinə də nəzarət edib. 1921-ci ildə Zəngəzurun bir hissəsi Ermənistana verilənədək tarixi torpaqlarımız bizim nəzarətimizdə olub. Sonra ermənilərə verilib. Xosrov bəy Birinci Dünya müharibəsi dövründə savaşdan əziyyət çəkən İğdırda, Qarsda qardaşlarımıza kömək edib. Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə yaradılmış Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü kimi uzun müddət Qarsda qalıb. Yaralılara, ağır vəziyyətdə olanlara əlindən gələn köməkliyi göstərib. Xosrov bəyin mətbuatda çoxlu yazıları, məqalələri var. Öz həyatını, fəaliyyətini Azərbaycanın azadlığına həsr edib".

> "Xosrov bəyin adının Qarabağ və Zəngəzurda istənilən mövqeyə verilməsi onun ruhunun şad olması deməkdir"

**Tarixçi qeyd edib ki, əgər söhbət Cümhuriyyət dövründə Zəngəzurun, Qarabağın azad edilməsindən, erməni quldurlarından təmizlənməsindən, bayrağımızın dalğalanmasından gedirsə, orada mütləq Xosrov bəy Sultanovun adı çəkilir:** "Xosrov bəy Sultanov Qarabağ və Zəngəzurun mücadilə simvoludur. 1919-cu ildə həm Xankəndidə, həm də Şuşanın İstiqlal meydanında Azərbaycan Milli Ordusunun hərbi paradının keçirilməsində Xosrov bəyin böyük rolu olub. Özü də həmin paradda iştirak edib. O baxımdan Xosrov bəyin adının Qarabağ və Zəngəzurda istənilən mövqeyə verilməsi onun ruhunun şad olması deməkdir. Eyni zamanda tarixi ədalətin bərpasıdır".



# ADA Universitetində toplantı

## “Dezinformasiyanın artımı: media sahəsinə təsiri və səmərəli cavab tədbirləri strategiyaları” mövzusunda dəyirmi masa keçirilib







**Dünən ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə ”Dezinformasiyanın artımı: media sahəsinə təsiri və səmərəli cavab tədbirləri strategiyaları” mövzusunda dəyirmi masa keçirilib.**

Yerli media orqanlarının rəhbər şəxslərinin iştirak etdikləri tədbirdə müasir dövrdə mediadakı problemlərdən, dezinformasiyaların artmasının mənfi təsirlərindən danışılıb, həmçinin bu hala qarşı mübarizə üsullarından bəhs olunub.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçən tədbirdə çıxış edən ATƏT-in media azadlığı üzrə nümayəndəsi xanım Teresa Ribeiro bildirib ki, elm və texnologiyanın sürətlə inkişaf etdiyi mürəkkəb bir dövrdə yaşayırıq. Belə bir dövrdə media azadlığı, dezinformasiya məsələsi aktuallıq kəsb edir. Smartfonların tətbiqi yanlış məlumatların daha geniş yayılmasına gətirib çıxarır. Bu da təbii olaraq insanlarda etibarsızlıq yaradır. Peşəkar mediaya etibarın sarsılması isə bir sıra problemlərə səbəb olur.

**Jurnalistikanın üzərinə düşən vəzifəni icra edə bilməməsinin fəsadlarla nəticələndiyini deyən Teresa Riberio qeyd edib:** ”Media azadlığı olmadan təhlükəsizlik ola bilməz. Məlumatların cəmiyyətə ətraflı, obyektiv və qərəzsiz ötürülməsi peşəkar jurnalistikada əsas amildir. Dezinformasiyaya qarşı mübarizədə şəffaflıq, cəmiyyətdə mediaya inam təmin olunmalıdır. Söz, fikir azadlığı, jurnalistin toxunulmazlığı, təhlükəsizliyi qorunub saxlanmalıdır. Media savadlılığı çox mühüm şərtdir”. ATƏT rəsmisi vurğulayıb ki, Azərbaycana səfərdə məqsəd media azadlığının təmin edilməsinə, dezinformasiyaya qarşı mübarizəyə kömək etməkdir.

**Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda ”Media haqqında” yeni Qanun qəbul edildiyini diqqətə çatdırıb.** Bildirilib ki, yeni Qanunun qəbul edilməsində məqsəd daxili məhsulun keyfiyyətli hazırlanması, paylanması, dövrün tələblərinə uyğunlaşdırılmasıdır. Qanun layihəsində bir çox məsələlərin əks olunduğunu qeyd edən Əhməd İsmayılov layihədə müəllif hüquqlarının qorunması ilə bağlı vacib müddəaların əksini tapdığını deyib. Diqqətə çatdırıb ki, KİV-in hüquqlarının, fikir, söz azadlığının təmin edilməsi, bərabər imkanların yaradılması mühüm amillər kimi diqqət çəkir.

”Yeni Qanun media sahəsində boşluqları doldurmaqla bərabər, söz, fikir azadlığının, plüralizmin təmin edilməsi, media ilə ictimaiyyət arasında münasibətlərin normallaşdırılması, bir sözlə, media üçün əlverişli mühitin yaradılmasının təminatçısıdır”, - deyən MEDİA-nın İcraçı direktoru əlavə edib ki, hazırda internet mediası və rəqəmsal mühit mövcuddur. Dezinformasiyanın yayılmasında sosial şəbəkələr öz rolunu oynayır.

Dezinformasiyaya qarşı mübarizədə hüquqi mexanizmlərdən danışan Əhməd İsmayılov vurğulayıb ki, medianı həm də ictimaiyyət formalaşdırır.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səftərov, ”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədri Rövşən Məmmədov, Azad Azərbaycan Teleradio Yayım Şirkətinin sədri Azər Xəlilov, ”Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli medianın ictimai münasibətlərin formalaşdırılması, informasiyalı cəmiyyətin qurulmasında mühüm rol oynadığını diqqətə çatdırıblar.

Qeyd olunub ki, media öz dövrünün güzgüsüdür və artıq cəmiyyət özü dezinformasiyanın yayıcısına çevrilib. Onlar dezinformasiyanın qarşısını almaq üçün beynəlxalq təcrübədən istifadə edilməsini və maarifləndirmənin əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, təməl prinsiplərə əməl olunmayanda cəmiyyətdə etimadsızlıq yaranır. Jurnalist müstəqil olmalıdır və feyk xəbər yazan media nümayəndələrinə qarşı tədbir görülməlidir. Dəyirmi masa müzakirələrlə davam edib.

# Rusiya danışıqlara mane olmağa çalışır

## Çünki Ermənistanla Azərbaycanın razılaşması rus sülhməramlılarının bölgəni tərk etməsi ilə nəticələnəcək



**Aprelin 25-dən Ermənistanda Nikol Paşinyan hökumətinə qarşı etiraz aksiyalarının növbəti mərhələsi başlayıb. Bir neçə istiqamətdə paytaxt İrəvana doğru yürüş təşkil olunub. Qeyd edilib ki, bundan sonra ölkədə genişmiqyaslı küçə nümayişləri və ənənəvi məşəl yürüşü keçiriləcək.**

Etirazçılar vurğulayıblar ki, əsas məqsədləri hakimiyyətdəki ”satqınları” devirməkdir. İrəvanda hökumət binasının qarşısında da aksiya keçirilib. Polis əməkdaşları hökumət binasının qarşısında aksiya keçirən tələbələri saxlayıb. Tələbələr ali təhsil müəssisələri önündə yürüşdən sonra hökumət binasının önünə gələrək baş nazirə ”hədiyyə” təqdim etməyə çalışıblar: ”Biz ona mütləq nə vaxtsa düşəcəyi həbsxanada lazım olacaq zəruri ərzaq məhsulları gətirmişik”.

**Ermənistandakı aksiyaları “Şərq”ə analiz edən Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib ki, Nikol Paşinyanın Moskva səfərindən sonra baş nazirin ritorikası dəyişib. Ekspertə görə, Paşinyanı Kremldə əməlli-başlı sıxışdırıblar:** ”Etiraz aksiyaları Paşinyanı Azərbaycan rəhbəri ilə müəyyən razılaşmalardan çəkindirmək, geri addım atmasını təmin etmək üçün həyata keçirilə bilər. Həmçinin, ölkədə qarışıqlıq Rusiyadakı bəzi dairələrə bağlı olan ”Qarabağ klanı”nın ”əsəri” də ola bilər. Nəzərə alaq ki, Paşinyan hökumətinə qarşı ən güclü təzyiqlər İkinci Qarabağ müharibəsindən sonrakı ilkin mərhələdə olub. Ancaq o zaman belə Paşinyanı devirmək mümkün olmadı. Müharibədəki ağır məğlubiyyətdən 5-6 ay sonra Ermənistanda təkrar seçkilər keçirildi və Paşinyan qələbə qazandı. Fikrimcə, hazırda Ermənistan daxilində baş verən proseslərin arxasında həm baş nazirə bağlı qüvvələr, həm də ”Qarabağ klanı” və Rusiya dayanır. Məsələyə bu yöndə baxsaq, proseslər aydınlaşar. Paşinyan daxili etirazlar hesabına özünə ”münbit şərait” yaratmağa çalışa bilər. Yəni sübut etmək istəyir ki, guya, özü sülhün imzalanmasında maraqlı olsa da, ictimaiyyətin etirazına görə prosesi tezləşdirə, güzəştlər edə bilmir”.

*S.Hümbətova görə, istənilən halda Şuşada keçirilən qurultayda dövlət başçısı İlham Əliyevin Ermənistana ünvanladığı mesaj çox önəmlidir*: ”Əgər İrəvan sülh sazişi imzalamağa yaxın durmasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bu çox önəmli nüansdır. Hamıya aydındır ki, Rusiyadakı müəyyən dairələr Azərbaycan-Ermənistan arasında gərginliyin qalmasında, prosesin yarımçıq saxlanılmasında maraqlıdır. Tərəflərin razılaşması rus sülhməramlılarının bölgəni tərk etməsi ilə nəticələnəcək. Ona görə də mümkün variantlarla danışıqlara mane olmağa çalışırlar. Lakin prosesi yubatmaq artıq mümkünsüzdür. Nəticələrin əldə olunmasına çox qalmayıb”.

**İsmayıl Qocayev**



# Camaat qazandıqlarını borca verir

## Tahir Kərimli bank faizlərinin silinməsini təklif edir

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli kredit borclarının silinməsini təklif edib. Deputat bildirib ki, bank borcları, faizləri bu gün əsas problemdir:**

”Azərbaycanda elə ailə tapmaq olmaz ki, faizlər onu əzməsin. Yoxsul ölkələrdə, o cümlədən Azərbaycanda da kredit faizləri yüksəkdir. Camaat qazandığının hamısını borca verir. Milli Bankın İdarə Heyətinə yeni sədr təyin etdik. Ondan xahiş edirəm ki, kredit faizlərinə 5-6 faiz limit qoyaq, faizləri, borcları siləк. Xalqımızı əzən borc sistemi haqqında yeni rəhbərlik qərar qəbul etsin”.

**İsmayıl**

# Rusiya 9 maya qədər hədəflərinə nail olmaq istəyir

## Xersonun ardınca Kremlin növbəti hədəfi şübhəsiz ki, Zaporoje bölgəsi olacaq

**İsmayıl Qocayev**



**Rusiya Ukraynada yeni qondarma separatçı ”respublika” yaratmaq istəyir. Xerson vilayətində ”xalq respublikası” yaratmaq məqsədilə aktiv fəaliyyət başlayıb. Rusiya tərəfi hələlik məsələ ilə bağlı rəsmi açıqlama verməsə də, Donbass və Luqanskın ardınca Xerson vilayətində də ”xalq respublikası”nın yaradılması ehtimalının reallaşması mümkün görünür.**

Ukraynanın ”Cənub” operativ komandanlığı məlumat yayıb ki, artıq bu məqsədlə ”referendum” keçirmək üçün hazırlıqlar gedir. İddiaya görə, ”referendum”u 27 apreldə keçirmək planlaşdırılıb. Ombudsman Lüdmila Denisova isə qondarma referendumun 1-10 may arasında keçiriləcəyinə cəhd ediləcəyi haqda məlumat aldığını deyib. Xerson şəhər meri İqor Kolıxayev isə onda ”referendumun tarixi” ilə bağlı hər hansı dəqiq məlumat olmadığını deyib. Rəsmilərin açıqlamalarından belə bir nəticəyə gəlmək olar ki, Xersonda qondarma xalq referendumu 1-10 may arasında keçirilməsi daha realdır. Nəzərə alsaq ki, Kreml 9 May Qələbə Gününə ciddi hazırlıq işləri görür, referendumun da bu tarixə qədər keçirilmək ehtimalı yüksəkdir.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, Rusiya üçün Xerson hazırda bir neçə baxımdan əhəmiyyətlidir. Analitik vurğulayıb ki, Xerson Rusiyanın Donetskdən Krıma qədər uzanan işğal xəttinin tamamlanması baxımından əhəmiyyətlidir:** ”Xersonda qurulacaq qondarma ”respublika” Kremlin Donetsk, Luqansk, Krım kimi Xersonda da möhkəmlənməsinə şərait yaradacaq. İkincisi, Xersonun alınması Luqanskla arada qalan və Donetsk-Krım işğal xəttini tamamlayacaq son məntəqə olan Zaporojenin işğalını tezləşdirəcək. Artıq bir neçə gündür, rus qoşunları Zaporojeni də ələ keçirmək üçün ciddi hücumlar təşkil edir.

Üçüncüsü, Xerson Krım üçün həyati əhəmiyyətə malik bir bölgədir. Xerson olmadan Krımın ilhaqının heç bir əhəmiyyəti yoxdur. Çünki Krımın su ehtiyatı məhz Xersondan keçən kanallar vasitəsilə təmin olunur. Xersonun ardınca Kremlin növbəti hədəfi şübhəsiz ki, Zaporoje bölgəsi olacaq. Zaporojenin işğalı ilə Krımdan Donbassa qədər uzanan işğal xətti tamamlanacaq. Mümkündür ki, Kreml həm də növbəti qondarma respublikanı Zaporojedə də qursun. Rusiya indiki məqamda 9 Maya qədər bu məqsədlərinə nail olmaq istəyir. Ehtimal etmək olar ki, Kreml sonda bütün separatçı respublikaları ”Novaya Rossiya” adlı konfederativ bir respublikada birləşdirib müstəqilliyini tanımağı hədəfləyir. Bu həm də Ukraynanın iki yerə parçalanması senarisinin reallaşması deməkdir”.

**Ekspert bildirib ki, Rusiya Donetsk və Luqanska bənzər ”Xerson Xalq Respublikası” təsis edərsə, bu, Kiyev ilə Moskva arasında danışıqların yenidən kəsilməsinə səbəb ola bilər:** ”Bu həm də müharibənin uzanması deməkdir. Müharibənin uzanması onsuz da Kremlin iqtisadi vəziyyətini günbəgün pisləşdirir. Qərbin artan iqtisadi və silah yardımı isə Ukraynanı gücləndirir. İndiki məqamda müharibənin uzanması Moskva üçün daha təhlükəli perspektiv vəd edir”.



# Ərdoğanı ağır vasitəçilik missiyası gözləyir

**İsmayıl Qocayev**

**Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı baş tutub. Tərəflər Ukraynadakı vəziyyəti müzakirə ediblər. Xatırladaq ki, Ərdoğanla Ukrayna rəhbəri V.Zelenski arasında da telefon əlaqəsi olub.**

Zelenski türkiyəli həmkarı ilə keçirdiyi telefon danışığında mühüm məsələləri müzakirə etdiklərini vurğulayıb: ”Prezident Rəcəb Tayyib Ərdoğanla mühüm danışığımız oldu. Mariupoldakı son vəziyyət, dinc əhalinin və yaralıların təxliyəsi, zərərsizləşdirilən Ukrayna ordusunun təcili yenilənməsi barədə danışdıq. Biz Rusiya ilə danışıqlar prosesini və müdafiə sahəsində də müzakirələr apardıq. Qara dəniz limanlarını bağlayan Rusiyanın dünya ərzaq bazarına yaratdığı təhlükələri də ətraflı müzakirə etdik. Artıq bir çox ölkələrdə ərzaq qiymətlərinin artması kritik həddə çatıb. Amma bu hələ başlanğıcdır”. Zelenski Rusiya-Ukrayna müharibəsi ilə bağlı son hadisələri diqqətə çatdırıb. Ukraynanın bəzi şəhərlərinə hücumların davam etdirildiyini deyən prezident Rusiyaya qarşı daha çox sanksiyaların tətbiq edilməsini tələb edib.

Türkiyənin Ukraynadakı səfiri Yağmur Əhməd Güldərə də Ankaranın münaqişənin həllində vasitəçilik missiyasından söhbət açıb. Səfir bildirib ki, Türkiyə həm Ukrayna, həm də Rusiya ilə normal əlaqələri olan bir ölkədir: ”Biz bu əlaqələrimizi Ukraynada silahların susması üçün aktiv şəkildə istifadə etmək əzmindəyik. Müharibə başladıqdan sonra iki ölkə arasındakı ilk üst səviyyədə görüş martın əvvəli Antalyada xarici işlər nazirləri arasında baş tutdu. Bu görüşün ardınca bizim nazir Moskvaya və Lvova səfər etdi və bunun nəticəsində də iki tərəfin müzakirələrini İstanbulda bir araya gətirdik. İstanbuldakı görüşdən sonra bəzi perspektivlər meydana gəldi. Lakin təəssüf ki, bundan sonra Buça və İrpendə baş verən üzücü görüntülər ortaya çıxdı. Təbii ki, biz də Türkiyə olaraq bu müzakirələrin davamı və maksimum pozitiv nəticələr qazanmaq üçün əlimizdən gələn hər şeyi etməyə hazırıq”.

> Rusiya və Ukraynanın yenidən normal həyata dönüşü məhz Türkiyə liderinin səylərindən asılı olacaq

**Türkiyənin vasitəçiliyi ilə bağlı ”Şərq”ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, Ukrayna savaşının nə qədər davam edəcəyi bilinmir. Ancaq savaş uzandıqca, hər iki tərəfdən itkilərin sayı artır. Humanitar vəziyyət ağırlaşır, dağıntıların əhatə dairəsi sürətlə genişlənir və mövcud vəziyyətin nəticələrinin aradan qaldırılması imkanları azalır:** ”Təbii ki, belə vəziyyətdə savaşın dayandırulmasında maraqlı olan dövlətlərin vasitəçilik missiyasının əhəmiyyəti artmış olur. Belə missiyanı üzərinə götürməyə hazır olan və bu imkanlara sahib dövlətlər qlobal savaş təhlükəsi vəd edən bu savaşdan çıxış şanslarını dəyərləndirməyə çalışırlar. Ancaq savaşın dayandırılmasında maraqlı olan səmimi dövlətlərin sayı məhduddur. Rusiya və Ukrayna arasında vasitəçilik missiyası üçün ilk növbədə hər iki tərəfin güvənə biləcəyi ölkə statusu olduqca vacibdir. Hələlik belə ölkələrin sırasında Türkiyə ön plana çıxmış kimi görünür. Rəsmi Ankara vasitəçilik missiyası üçün konkret hərəkətə də keçib. Prezident Rəcəb Tayyib Ərdoğan Ukrayna lideri ilə təmasdan sonra Kreml sahibi Vladimir Putinlə də telefon əlaqəsi saxlayıb. Türkiyə prezidenti Rusiya və Ukrayna arasında danışıqların başlamasının vacibliyini vurğulayıb. Ərdoğan Kreml sahibinin diqqətini sülhün yolunun açılmasına yönəlik cəhdlərin önəminə çəkib”.

**S.Əsədli vurğulayıb ki, Türkiyə prezidenti Rusiya və Ukrayna arasında savaşı dayandırmaq üçün vasitəçilik missiyasını öz üzərinə götürmək potensialını sübuta yetirmiş durumdadır:** ”Üstəlik, Kreml sahibi Türkiyə liderinə Rusiyanın münaqişəni həll etmək üçün Ukrayna hakimiyyəti və xarici tərəfdaşlarla da dialoqa hazır olduğunu etiraf edib. Türkiyə prezidentini olduqca ağır vasitəçilik missiyası gözləyir. İndiki halda bu ağır missiyanı Türkiyə liderindən başqa üzərinə götürməyə maraqlı rəhbər yoxdur. Rusiya və Ukraynanın yenidən normal həyata dönüşü məhz Türkiyə liderinin vasitəçilik missiyasından asılı hala gəlmiş kimidir. Əgər missiya uğur qazanarsa, Türkiyə Qərbin Ukraynada partizan müharibəsi ilə Rusiyanı uzun müddət savaşın içərisində tutmaq planını pozmuş olacaq”.

# "3+3" platforması vacib və qaçılmazdır

## Toğrul İsmayıl: "İnanıram ki, bu format problemlərin yumşalmasına, həll olunmasına yol açacaq"



**Zaqafqaziya üzrə "3+3" platformasının ikinci iclasına hazırlıq işləri gedir və eyni zamanda tərəflərin razılığı ilə Gürcüstan üçün "qapılar" açıqdır. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin Dördüncü departamentinin direktoru (MDB ölkələri üzrə) Denis Qonçar məlumat verib.**

Onun sözlərinə görə, Rusiya Federasiyası, Azərbaycan, Ermənistan, Türkiyə xarici işlər nazirlərinin müavinləri və İran Xarici İşlər Nazirliyinin baş direktorunun həmsədrliyi ilə "3+3" regional konsultativ platformasının ilk iclası 2021-ci ilin dekabrında Moskvada keçirilib. Bundan əvvəl Gürcüstan Xarici İşlər Nazirliyi Tbilisinin regional konsultativ mexanizmdə iştirakdan imtina etdiyini təsdiqləmişdi.

"Hazırda "3+3" Konsultativ Regional Platformasının ikinci iclasına hazırlıq gedir. Tədbirin keçirilmə yeri və vaxtı barədə açıqlama veriləcək. Mən əminəm ki, "3+3"-ün müəyyən olunmuş gündəmi Gürcüstanın maraqlarına da tam olaraq cavab verir və Gürcüstan üçün "qapılar" bütün iştirakçı ölkələrin ümumi razılığı ilə açıq qalır", - deyə diplomat vurğulayıb.

**Sözügedən formatın ikinci iclasına hazırlıq işləri getməsi ilə bağlı "Şərq"ə danışan Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıl "3+3" formatının önəmindən bəhs edib. O bildirib ki, ikinci görüşün keçirilməsi çox vacibdir:**

"Bildiyimiz kimi, "3+3" formatını təklif edən Azərbaycan və Tükiyədir. Bu üç bölgə ölkəsinə və üç bölgəyə yaxın böyük dövlətlərin bir araya gələrək bölgədə barış və stabilliyin təminatı kimi görülən bir platformadır. Düzdür, bu mexanizm bir az fərqli şəkildə - Azərbaycan, Türkiyə və Gürcüstan formatında onsuz da mövcud idi. Bu ölkələr bölgədə enerji, iqtisadi, hərbi və s. kimi sahələrdə iş birliklərini davam edirlər. Amma bu "3+3" format bir az daha fərqli şəkildə fəaliyyət göstərir. Bu platforma daxilində birinci görüş baş tutmuşdu. Gürcüstan bu görüşə qatılmasa da, ilk görüşdə problemlər müzakirə olunmuşdu. Mənə görə, ikinci görüşün gözlənilməsi çox vacibdir. Əsas odur ki, tərəflər proseduru qəbul edib".

**T.İsmayıl formatın əhəmiyyətini izah edib. Siyasi şərhçi inanır ki, bu format problemlərin yumşalmasına və həll olunmasına səbəb olacaq:**

"Məlum format bölgə ölkələri üçün vacibdir. Kənar güclər, xüsusilə, Amerika Birləşmiş Ştatları və Fransa bu formatdan razı deyil. Onlar problemi bölgə ölkələrinin öz daxilində həll etməyə çalışırlar. Bu da müsbət hadisədir.

Problemlər çoxdur və onların müzakirəsi uzun müddət tələb edəcək. Həllini tapmayan məsələlər də var. Gürcüstan və Rusiya arasındakı problem ciddidir. Ermənistanla Türkiyə, Ermənistanla Azərbaycan arasında həll olunmayan problemlər mövcuddur.

Ümumiyyətlə, bölgəmizdə problemlər çox həssasdır və uzun illərdir, davam edən proseslərin nəticəsidir. İnanıram ki, bu format problemlərin yumşalmasına, həll olunmasına yol açacaq".

**Çimnaz**

# "Heç kim "Tiktok"da pulunu çölə atmır"

## Yutuber Bahadur Seyidov: "Pərvin Abıyeva 24 saat canlı yayımda yatsa belə 35 min dollar qazana bilməz"

**"Tiktok" sosial şəbəkəsi son vaxtlar Azərbaycanda xeyli populyarlıq qazanıb. Bir çoxları buna gənclərin asudə vaxtlarını keçirməsi və əylənməsi üçün platforma kimi baxır. Bəziləri isə "Tiktok" hesabına məşhurlaşıb. Bir çox məşhurlar isə "TikTok" sosial şəbəkəsində oyun oynayaraq gəlir əldə edir. Məhşurların "tik-tok"dan əldə etdiyi gəlirlərdən həvəsə düşən gənclər də kütləvi şəkildə bu şəbəkəyə axın edib bəxtlərini sınayırlar. Əvvəllər hər kəsin yüngül əyləncə məkanı hesab elədiyi bu platformadan ciddi məbləğdə pul qazanan insanlar var.**

Aktrisa Pərvin Abıyeva da "TikTok" sosial şəbəkəsinə qatıldığı ilk ay 35-36 min dollar (təxminən 59500 - 61200 AZN) qazandığını bildirib.

Aktyor Elcan Rəsulov isə Pərvin Abıyevanın "TikTok"dan 35.000 dollar pul qazanmışam" iddiasını yalanlayıb: "Mən "TikTok"a birinci gələn məşhuram. Tam əminliklə deyirəm ki, heç nə deyilən kimi deyil. Pərvin Abıyeva real 35 000 dollar görməyib. Sadəcə, rəqəm hesabı ilə görüb. Qazandıqları yalnız ona qala bilməz. Bir az da xərcləməlidir. Qazandığın pulun yarısını geri dönüş almaq üçün xərcləməlisən. Qazandım, götürdüm, getdim kimi məsələ olmur, yoxdur da..."

**"De Media" şirkətinin rəhbəri, yutuber Bahadur Seyidov (Hoca) isə "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanda "TikTok" üzərindən reklamla pul qazanmaq hələ ki formalaşmayıb:** "Hazırlayıb paylaşdığın hər hansı bir videonun üzərində reklamlar çıxır və sən həmin reklamlardan pul qazanırsan. Yutub və feysbukda bu sistem geniş yayılıb. "TikTok"da isə mümkün olmadığından tiktokerlər "coinlər" vasitəsiylə pul qazanırlar. Yəni "TikTok" istifadəçiləri izlədiyi şəxsin canlı yayımına qoşularaq ona istədiyi məbləğdə hədiyyə göndərə bilər. Canlı yayımlar hədiyyə sistemi ilə işləyir. "TikTok" istifadəçiləri profilə daxil olub ürək göndərirsə, bu, 50 "coin" hesablanır. Şir göndərmək isə 3000 "coin" dəyərindədir. İzlədikləri insanlar isə həmin "coin"ləri nağd pula çevirə bilirlər. Amma məbləğin hamısı izlənən şəxsin cibinə getmir. "TikTok" həmin pulun müəyyən faizini özünə götürür".

**- "TikTok"dan gəlir əldə etməyin daha rahat bir yolu yoxdurmu?**

- Əlbəttə, var. Bahalı markalar bu platformanı marketinq məqsədləri üçün istifadə edir və gəlir gətirirlər. "TikTok"a markaların marağı artdıqca, bu da yaradıcılara "TikTok"dan pul qazanmaq üçün daha böyük imkanlar yaradır. "TikTok"da məşhurlaşıb böyük markaların, brendlərin "üzünə" çevrilənlər də var, böyük-böyük dəvətlər, ciddi iş təklifləri alanlar da. Sadəcə olaraq bizdə nə Pərvin Abıyevanın, nə də hansısa başqa məşhur istifadəçilərin bahalı markaları reklam etdiyini görməmişəm. Azərbaycanda fəaliyyət göstərən markaların heç biri "Tiktok"u ciddi şəbəkə kimi qəbul etmədiyi üçün orada reklam verməkdə maraqlı deyillər. Reklam postlarını daha çox instaqramda, yutubda verirlər. Dünya şöhrətli ulduzlar isə reklam etdikləri firmalarla bağladıqları müqavilələr əsasında burdan milyonlara sahib olurlar.

**- Pərvin Abıyeva "TikTok"dan 35 min dollar qazana bilər?**

- Düzü, Azərbaycanda həftəlik sıralamada lider olan şəxsə nə qədər jeton gəlir, nə qədər məbləğ hədiyyə kimi göndərilir, konkret statistikasını bilmirəm. Amma Pərvin Abıyeva 24 saat canlı yayımda yatsa belə 35 min dollar qazana bilməz. Onun izləyicilərinin və canlı yayımlarına baxış sayına görə bunun mümkün olmadığına əminəm. Sözsüz ki, Pərvin Abıyeva gözəl və cazibədar xanımdır, amma heç kim pulunu çölə atmır. Həmin məbləğin onda biri qədər qazana bilər. Məşhur simadı, yəqin düşünüb ki, qazandığı məbləği şişirtsə, izləyicilərinin ona "coin" göndərənlərin sayı daha da artacaq.



*"Bənzətməm bir az etik çıxmaya bilər, amma 100 qoyunu olan çoban təsəvvür edin. Həmin qoyunların 90-ı sürüdən ayrılıb dərəyə düşür. Çoban ora dərədi deyib 10 qoyunla yoluna davam etməyəcək ki?"*

Bahalı paltar geyinən cılız adamlar var ki, hansısa məclisə daxil olanda onun geyiminə baxıb hörmətlə qarşılayırlar ki, imkanlı adamdı.

**... "dostlar, nolar, mənə hədiyyə göndərin"**

Lap o qədər gəlir qazansa belə bunu ictimaiyyətə açıqlamağın özü belə biabırçılıqdı. Bir şeyi ki, ona-buna yalvara-yalvara, dilənə-dilənə qazanasan!? Mənim fikrimcə, "TikTok"da canlı açıb hədiyyə istəməklə, küçədə əl açıb dilənməyin heç bir fərqi yoxdur. Bu da bir növ virtual dilənçilikdir. Mən "TikTok"dan maarifləndirici videolar paylaşmaq üçün istifadə edirəm. Heç vaxt canlı açıb "dostlar, nolar, mənə hədiyyə göndərin" deyə yalvarmaram. Özünə hörmət edən insan bu cür pul qazanmamalıdır. Vallah, azdan-çoxdan bəzi məşhurlara hörmətim vardı, "TikTok" çıxandan hamısı gözümdən düşüb. Onsuz da hamınızın gəliriniz kifayət qədərdir, qəpik-qəpik pul dilənməyə ehtiyacınız var ki!?

**"Bu gün Feysbuk artıq orta nəslin sosial platforması kimi qəbul olunur. Ona görə yeniliklə uzlaşmağın tərəfdarıyam"**

**- Mən kiməsə hədiyyə göndərirəmsə, mənim xeyrim nədir?**

- Heç nə, kütlə təfəkkürü... bəzən insanlarımızı da heç başa düşmürəm. Kimi dindirirsən ağlayır, kasıbçılıqdan gileylənir. Amma bütün gün oturub "TikTok"da ona-buna hədiyyə göndərirlər. Bəzilərinin pulu çoxdu, ürəyi pul xərcləmək, başqalarına hava atmaq, populyarlıq qazanmaq istəyir və yer tapmır. Yerdə qalanları da axına qoşulur. Baxır ki, bunun bəyənib izlədiyi məşhuru hədiyyə yağışına tutublar, həvəslənib bu da 3-4 manatlıq hədiyyə alır "coin" göndərir. 1 dollara nə qədərsə "coin" alır və beş-beş, on-on göndərir. İzləyicilərinin sayı çox olan blogerlər bu məbləğlər üst-üstdə yığılanda böyük pul edir.

Sosial şəbəkələr, eyni zamanda, saxta göstərişlərin və saxta xoşbəxtliyin məkanıdır.

**- Azərbaycanda insanlar arasında tiktokerlər müsbət qarşılanmır. Səbəbi isə bayağı, heç bir informasiya ötürməyən, maraqsız videolardır. Bu, belə də davam edəcək, yoxsa nə vaxtsa "TikTok"da digər şəbəkələr kimi əhəmiyyətli bir platformaya çevriləcək?**

- Mən özüm "TikTok"da yeni profil açmışam. Bu günə qədər istifadəçisi deyildim. Mənasız videolarla "like" yığan insanları izləmək mənim üçün maraqlı deyildi. Amma sonradan fikrimi dəyişdim və hətta feysbukda belə bir post da paylaşdım ki, "biz hamımız tiktoka getməliyik" . Hər nə qədər orada paylaşılan videolar bayağı olsa da, o insanlar da bizim bir fərdimizdir. Maraqlarımız, dünyagörüşlərimiz uyğunlaşmır deyə biz "TikTok"da bayağı paylaşımlar edən gəncləri öz auditoriyamızdan kənar edə bilmərik. Bənzətməm bir az etik çıxmaya bilər, amma 100 qoyunu olan çoban təsəvvür edin. Həmin qoyunların 90-ı sürüdən ayrılıb dərəyə düşür. Çoban ora dərədi deyib 10 qoyunla yoluna davam etməyəcək ki? Dərəyə doğru gedəcək. Əstəğfürullah, camaatı qoyunla müqayisə etmirəm, sadəcə, misal çəkirəm.

Deməyim odur ki, KİV olaraq insanlarımızı maarifləndirmək istəyiriksə, biz də kütlə hardadırsa, orada olmalıyıq. Ziyalı, ictimaiyyət adamlarının toplaşdığı sosial platformalarda özümüz deyib özümüz eşidəcəyiksə, daha maarifləndirmənin nə əhəmiyyəti? Kütlə hardadırsa, biz də həmin platformada öz işimizi qurmalıyıq. Bilirsiniz, gənclər niyə "TikTok"da bayağı videolar çəkib paylaşa, hər cür hoqqadan çıxa bilir? Çünki onun əmisi, dayısı, müəllimi həmin platformada yoxdur. "TikTok"da istifadəçilərinin əksəriyyəti özü ağılda dostları-qonşularıdır. Əgər bir böyüyü, yaxın qohumun onu izlədiyini bilsə utanacaq əttökən videolar çəkməyə. Utanmayanlara da ailə böyükləri tənqid edib utandıracaq. Bütün şəbəkələr bu yoldan keçib. 10 il əvvəl insanlarımız yutubda ancaq meyxanaya, Üzeyirə qulaq asır, "mırt" videolara baxırdılar. Bu gün isə hər kəs yutub kanalı açaraq öz auditoriyasını orada toplayıb. Həmçinin də feysbuk profili açanda deyirdilər "qızlarla çatlaşır". Vaxt gələcək "TikTok" da ələnərək normal bir platforma kimi qəbul olunacaq. "Kəşf et"də qarşımıza sadəcə əttökən deyil, maarifləndirici və səviyyəli videolar çıxacaq. Artıq mən "Demədi-demə"də hazırladığım maarifləndirici, motivasiya edici videoları öz "TikTok" səhifəmdə paylaşmağa başlamışam. Mənə dedilər sənin videolarını orada heç kim izləyən deyil. Halbuki, su içməyin faydaları haqqında hazırladığım videonun 1 milyon 200 baxış var. Bu gün işlədiyim gənclərin heç biri feysbuk işlətmir. Onların maraq dairəsi "TikTok"dur. Feysbuk artıq orta nəslin sosial platforması kimi qəbul olunur. Ona görə yeniliklə uzlaşmağın tərəfdarıyam və hesab edirəm ki, ziyalı insanlarımız da "TikTok"da özlərinə hesab açaraq öz sahələrinə uyğun paylaşımlar etməlidir ki, gənclərin maraq dairəsi genişlənsin.

**Şəymən**



# "Məmurların da üzr videoları paylaşılsın"

**Xəbər verdiyimiz kimi, Bakıda minik avtomobilinin sürücüsü moped sürücüsünü döyərək, təhqir edib. Mopedi idarə edən Murad Salmanın paylaşdığı görüntülər sosial şəbəkələrdə geniş müzakirə predmetinə çevrilib və hadisəni törədən "Lexus" sürücüsü şiddətlə qınanıb.**

*Sosioloq moped sürücüsünü döyən məmurla bağlı təklif səsləndirdi*

Qeyd edək ki, "Lexus" markalı, 10-VX-707 dövlət nişanlı avtomobilin sahibi və sürücüsü Sultan Tofiq oğlu Dadaşov 2 il əvvəl 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib. Onun Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində inzibati xarakterli vəzifə tutduğu da bildirilir.

"Qaynarinfo"nun yaydığı məlumata görə, "Lexus" sürücüsü Sultan Tofiq oğlu Dadaşov saxlanılıb və məhkəmənin qərarı ilə barəsində 25 sutkalıq həbs qərarı verilib.

**Sosioloq Lalə Mehralı məmurun davranışını "Şərq"ə açıqlamasında tənqid edib. O, belə hallar üçün öz təklifini irəli sürüb:**

"Əvvəllər də buna bənzər hadisələr baş verib. Bununla bağlı Prezident İlham Əliyev dəfələrlə lazımi tədbirləri görüb. Öncəki hallarda da harınlıq, vəzifəsindən sui-istifadə edənlər cəzalandırılıb. Yetər ki, dövlət başçısına məlumat verilsin. Artıq mətbuatda da yayılıb ki, həmin şəxs tutduğu vəzifədən azad edilib və müvafiq olaraq cəzalandırılıb. Təklif edirəm ki, belə hallarda oğurluq edən şəxslərin, narkotik istifadəçilərinin üzr videoları yayıldığı kimi, bu insanların da üzr videosu paylaşılsın. Bu cür hallarda həm digər məmurlar dərs alır, həm də ictimaiyyətin qınağı yerinə yetirilmiş olur. Ümumilikdə məmurlar anlamalıdırlar ki, bu cür davranmağın nəticəsi nə olacaq. İnsan vəzifəyə gələ bilər, gedə də bilər. Vəzifə heç kim üçün daimi deyil. Amma illərlə qazandığı ad-sanı, hörməti, nüfuzu bir göz qırpımında itirməyi heç kim istəməməlidir".

*Sosioloq hesab edir ki, adıçəkilən şəxs tutduğu əməldən də peşman deyil:*

"Həmin şəxs açıqlama verib ki, təzyiqi qalxdığına görə belə davranıb. Hesab edirəm ki, o şəxs davranışından peşman olduğu üçün belə açıqlama verməyib. Əgər hadisə gizli qalsa idi, kamera olmasaydı, yenə də bu cür davranmağa davam edəcəkdi. Çünki onlar artıq alışıblar. O, yalnız səhvinin səbəb olacağı şeylər üçün peşmanlığını dilə gətirir".

**Çimnaz**

# Lavrov vəziyyətin fərqindədir

## İndi Rusiya sülhə daha çox can atır



*Ukrayna isə bütün şəhərlərini azad edənə kimi savaşdan çəkinməyi düşünmür*

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Ukraynadakı münaqişənin müqavilə ilə başa çatacağını deyib. XİN rəhbərinin sözlərinə görə, müqavilənin parametrləri hərbi əməliyyatların mərhələsi ilə müəyyən ediləcək.**

Lavrov bildirib ki, Rusiya Ukraynaya təhvil verilən müqavilənin yenilənmiş variantında Kiyevin iradlarını nəzərə alıb, lakin hələ də öz təkliflərinə cavab almayıb: "Biz onlara müqavilənin daha bir yenilənmiş variantını verdik. Onların sonrakı şərhlərini nəzərə aldıq və indi bir həftədir gözləyirik". Rusiya XİN başçısı nüvə müharibəsini də istisna etməyib. Onun sözlərinə görə, nüvə müharibəsi riski indi çox əhəmiyyətlidir: "Bu təhlükəni qiymətləndirməmək olmaz, lakin bu təhlükəni süni şəkildə şişirtməyə hazır olanlar var". Lavrov Qərb ölkələrinin öz hərbi birliklərini Ukraynaya göndərməyəcəyinə ümid etdiyini bildirib və Üçüncü Dünya savaşına imkan verilməməli olduğunu qeyd edib. Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Mixail Podolyak isə deyib ki, Lavrovun nüvə silahından istifadə ilə bağlı təhdidi sivilizasiya uçurumudur: "Dünyanın bir tərəfində İlon Mask kosmosa raket göndərir, tvitteri satın alır, okeanın bu tayında isə rusiyalı nazir dünyanı nüvə müharibəsi ilə hədələyir, sosial şəbəkələrə senzura tətbiq olunur. Bu, sivilizasiya uçurumudur".

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, hazırda Ukrayna-Rusiya müharibəsinin ikinci dalğası yaşanır. Ekspert vurğulayıb ki, Rusiya Ukraynanın cənub-şərqini işğal edərək Krıma yol açmaq istəyir:** "Qərbin Kiyevə lojistik dəstəyi artmaqdadır. Rusiyanın ciddi itkiləri olduğuna görə, rəsmi Kiyevlə dil tapmağa çalışır. Bu da onu göstərir ki, Moskva konkret olaraq Kiyevdən cavab gözləyir. Təbii ki, Ukraynanın cavabı Moskvanı qane etməlidir. Lavrov da məhz buna diqqət çəkir. Kreml qeyri-obyektiv mövqe sərgiləyir və öz şərtlərini müqavilə mətninə salmağa çalışır. Ukrayna isə bununla razılaşmayacağını bəyan edir. Göründüyü kimi Kiyev danışıqlarda əvvəlki kimi maraqlı deyil. Ukrayna rəhbərliyi Rusiyanı işğal olunmuş şəhərlərdən hərbi güclə atmaq, əks-hücuma keçmək niyyətindədir. Ona görə də cavab gecikdirilir. Döyüş əməliyyatları davam edir. Kim savaş meydanında üstünlüyü ələ alsa, masada şərtləri həmin tərəf diktə edəcək. Kiyev bütün şəhərlərini azad edənə kimi savaşdan çəkinməyi düşünmür".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

# Hər şagird bir qəhrəmandır

## Məktəblilərimizə qəhrəmanlıq ideyalarının aşılanması günün tələbidir



**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı ölkəsinin, yaşadığı cəmiyyətin, xalqının inkişaf göstəricisidir. Çünki istənilən uşaq hansı mühitdə böyüyürsə, gələcəkdə məhz o mühitdə görüb-götürdüklərini nümayiş etdirir. Hazırda dövlət səviyyəsində uşaq və gənclərin mənəvi və fiziki inkişafı üçün geniş şərait yaradılıb.**

Ölkəmizdə uşaq və gənclərin həyatını dəyişən, onlara hərtərəfli stimul verən qayğı siyasəti mövcuddur. Xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanan dövlət-uşaq siyasətinin əsasında cəmiyyətimizin əsas özəyi olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyənin səviyyəsinin artırılması, uşaq yaradıcılığının dəstəklənməsi dayanır. Bu mənada gənc nəslin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaş kimi böyüməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır. Müstəqillik qazandığı ilk gündən dövlətimiz bu sahəyə xüsusi diqqət və qayğı göstərir. Əlbəttə, hər bir uşağın və gəncin gələcəkdə layiqli vətəndaş kimi yetişməsində onun mənəvi və fiziki tərbiyəsi ilə yanaşı milli vətənpərvərlik ruhunda yetişdirilməsi önəmli yer tutur. İstər dövlət, istərsə də qeyri-dövlət təşkilatları həmişə bu istiqaməti əsas prioritet hesab edərək uşaqların mənəvi tərbiyəsinin inkişaf etdirilməsi üçün müxtəlif tədbirlər, layihələr həyata keçiriblər. Qeyd edək ki, Bakı şəhəri Yasamal rayonu Aslan Ağaverdiyev adına 31 nömrəli tam orta məktəbin şagirdləri Cəmşid Naxçıvanski adına hərbi liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət ediblər. Şagirdlərə xüsusi təyinatlı təhsil müəssisələrinin yaranma tarixi və fəaliyyəti barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb. Qonaqlar hərbi liseyin və ali hərbi məktəbin ərazisi, əsgər yataqxanası və yeməkxana, tibb məntəqəsi, idman şəhərciyi və hamam-camaşırxana kompleksi ilə tanış olublar. Hərbi təhsil ocaqlarında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlar ziyarətçilərin böyük marağına səbəb olub. Sonra məktəblilərin Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiyası təşkil edilib. Şagirdlər açıq səma altında müxtəlif qoşun növlərinə aid texnikalardan ibarət ekspozisiya ilə tanış olub, xatirə şəkli çəkdiriblər. Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, Vətən müharibəsinin iştirakçıları, məktəbin müəllim və şagirdləri, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər. Çıxış edənlər bu cür tədbirlərin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində, orduya hazırlanmasında, hərbi biliklərə yiyələnməsində və onlarda hərbi peşələrə marağın oyadılmasında müstəsna əhəmiyyətindən danışıblar.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanovun ”Şərq”ə açıqlamasına görə, ümumtəhsil məktəblərində təbliğ olunan mənəvi ideyalar şagirdlərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hisslər yaradır. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır:** ”Uşaqlarda mənəvi dəyərlərin, vətənpərvərlik ruhunun gücləndirilməsi üçün bu cür layihələrin sayı çoxalmalı və müntəzəm olaraq həyata keçirilməlidir. Məktəblərimizin qarşısında qoyulan ən ali məqsəd şagirdlərə hərbi vətənpərvərlik hissini aşılamaq, onları vətənimizin fəal müdafiəsinə hazırlamaq, onlara daim qəhrəmanlarımızın həyat yolu ilə onları yaxından tanış etmək, daim öz üzərlərində çalışıb bilik və bacarıqlarını daha da artırmaq, vətənimizin hərbi qüdrətini hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir. Belə tədbirlərin və tanışlıq ekskursiyalarının təşkili vətənpərvərlik hisslərinin aşılanmasında, şagirdlərimizdə milli ruhun formalaşmasında, tərbiyəsində böyük rol oynayır. Məktəblilərin bu yaşlarda mənimsədiyi biliklər və aşılanan duyğular həm onların yaddaşına güclü həkk olunur, həm də gələcəkdə faydalı bir vətəndaş kimi yetişmələrində, peşə, həyat seçimi etmələrində böyük əhəmiyyət kəsb edir. Bu yaşda aşılanan vətənpərvərlik hissi, Vətən, torpaq sevgisi, Vətənin müdafiəsinə hazırlaşmaq duyğuları böyük əhəmiyyət daşıyır və uşaqların yaddaşında silinməz müsbət izlər qoyur. Cəmşid Naxçıvanski adına hərbi liseyin bu il 50 illik yubileyidir. Bu dövr ərzində lisey minlərlə kursant yetişdirib. Ordumuzda xidmət edən, sərhədlərimizin və suverenliyimizin keşiyində dayanan peşəkar hərbçilərimizin əksəriyyəti bu liseyin məzunlarıdır. Şagirdlərin onlar haqqında məlumat alması, göstərdikləri qəhrəmanlıqları eşitməsi olduqca müsbət haldır. Bir insan öz ölkəsi, Vətəni haqqında nə qədər çox məlumat alarsa, torpağını da bir o qədər çox sevər, onun milli sərvətlərinə, milli dəyərlərinə qırılmaz tellərlə bağlanar və onu qorumağı özünə borc hesab edər. Hərbi tarix muzeyində Azərbaycanın böyük sərkərdələri, xanları, yenilməz döyüşçüləri haqqında geniş məlumatlar var. Kitabdan oxumaqla qəhrəmanlara aid eksponatlar görmək, onlar haqqında ətraflı mühazirələr dinləmək eyni deyil. Çox uzağa getməyək, uşaq və gənclərimizin Hərbi Qənimətlər parkına olan diqqət və marağı çox təqdirəlayiqdir. Sizi inandırım ki, Parkı ziyarət edən gənclərin tərbiyəsində, hisslərində mütləq bir dəyişiklik hiss olunur. Orada sərgilənən texnika, mühit, qələbəni əks etdirən görüntülər gənclərimizin düşüncələrinə təsir edir”.

*“Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır”*

**Ş.Ramaldanovun sözlərinə görə, bu gün uşaqların fiziki və mənəvi inkişafı üçün ölkəmizdə mühüm işlər görülür, lazımi addımlar atılır.** ”Azərbaycanda dövlət gənclər siyasətinin əsas istiqamətləri məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Ulu öndərimiz tərəfindən bu istiqamətdə uğurla həyata keçirilən siyasət hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkə başçısı respublikamızda uşaqlara dövlət qayğısının gücləndirilməsi istiqamətində mühüm işlərə imza atıb. Bu gün də ölkəmizdə uşaq və gənclərin milli-mənəvi inkişafı üçün mühüm addımlar atılır. Görülən işlər bunu deməyə əsas verir ki, uşaqların mənəvi inkişafı ölkəmizin əsas prioritetlərindən biridir. Hazırda dövlət səviyyəsində uşaq və gənclərin mənəvi və fiziki inkişafı üçün geniş şərait yaradılıb, onlara hərtərəfli stimul verən qayğı siyasəti mövcuddur”.

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Tahir Kərimli, sadəcə, populizmlə məşğuldur"

## Əkrəm Həsənov: “Bank faizlərini kiminsə göstərişi deyil, bazar özü müəyyənləşdirir”




**Milli Məclisin dünənki iclasında parlamentin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli banklarda kredit borclarının silinməsi ilə bağlı təklif irəli sürüb. Onun sözlərinə görə, bank borcları, faizləri bu gün əsas problemdir. Azərbaycanda elə ailə tapmaq olmaz ki, faizlər onları əzməsin.**

Deputatın fikrincə, yoxsul ölkələrdə, o cümlədən Azərbaycanda da kredit faizləri yüksəkdir: ”Camaat qazandığının hamısını borca verir. Biz Mərkəzi Bankın İdarə Heyətinə yeni sədr təyin etdik. Ondan xahiş edirəm ki, biz kredit faizlərinə 5-6 faiz limit qoyaq, faizləri, borcları silək. Xalqımızı əzən borc sistemi haqqında yeni rəhbərlik qərar təsdiqləsin”.

*“Parlament elə qanunlar qəbul etsin ki, əsasında normal məhkəmə sistemi qurulsun”*

**Parlamentarinin təklifinə münasibət bildirən bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənovun qənaətincə, Tahir Kərimli, sadəcə, populizmlə məşğuldur:** ”Xalq arasında ucuz şöhrət qazanmaqdan ötrü fikirlər səsləndirir. Çünki Azərbaycanda bazar iqtisadiyyatı mövcuddur. Tahir Kərimli dövlət müstəqillik aktına 1991-ci ildə səs verən şəxslərdən biridir. Həmin aktda yazılıb ki, ölkəmizdə bazar iqtisadiyyatı var. Yəni faizləri kiminsə göstərişi deyil, bazar özü müəyyənləşdirir. Dövlət orqanları, parlament yalnız faiz dərəcəsinin aydınlaşmasına təsir göstərə bilər. Təəssüf, parlamentarilər birbaşa işləri ilə məşğul deyillər. Təsir imkanlarından yararlanmırlar”.

Ə.Həsənov Azərbaycanda kredit faizlərinin yüksəkliyinin səbəbini açıqlayıb: ”Parlamentin səbəbləri aradan qaldırmağa xeyli cəhd göstərməsi mümkündür. Birincisi, banklar pullarını kredit vermirlər. Başqalarından aldıqlarını kredit verirlər. İlk mənbəyi də əmanətlərdir. Azərbaycanda əmanət faizi 12 faizdir. Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası qanuna görə müəyyən edir. Qanunu da deputatlar müəyyənləşdirir. 12 faiz çoxdur. 12 faizlə əmanət götürən bank, necə ucuz kredit versin? Üzərinə əməkhaqqı və s. kimi xərclər gəlir. Parlament əmanət üzrə faizi endirməlidir.

İkincisi, uçot dərəcəsi ilə bağlı qərar Azərbaycan Mərkəzi Bankının (AMB) səlahiyyətindədir, amma həmin dərəcəylə bütün banklara kredit vermir, ona görə də faizlər düşmür. AMB kreditlərini hərrac vasitəsilə ödəməlidir. Gərək, parlament AMB haqqında qanunda birbaşa yazsın. Tahir Kərimli qanunvericilik təşəbbüsünü diqqətə çatdırsın.

Üçüncüsü, Azərbaycanda kredit riskləri yüksəkdir. Yəni kreditlər qaytarılmayanda bankların itkiləri, yaxud onların geri dönməsi üçün bankın vəkilə, məhkəməyə, icra məmuruna və s. verdikləri rüşvətdir. Banklar da Azərbaycanda ağıllı-başlı məhkəmə sisteminin olmadığını bilir. Korrupsiyadır. Parlament elə qanunlar qəbul etsin ki, əsasında normal məhkəmə sistemi qurulsun. Azərbaycanda Ali Məhkəmə, Apelyasiya Məhkəməsinin hakimlərini parlament təyin edir. Belə hakimlər qoymasın, dəyişsin, çıxarsın. Korrupsiyanın qarşısını almaq üçün dövlət məmurlarının, o cümlədən hakimlərin gəlir və xərclərini bəyan etməsi haqda qanun qəbul etsin. Bu yollarla faiz dərəcələrinə təsiri mümkündür. Deputatlar birbaşa vəzifələri ilə deyil, boş-boş populizmlə məşğuldurlar”.

**Aygün Tahir**

# Qurana qarşı gizli "səlib yürüşü" başlayıb

## “Başda qardaş Türkiyə olmaqla bütün müsəlman dövlətləri qəti mövqe ortaya qoymalıdır”



**”İsveçdən sonra Danimarkada da Quranın dövlət mühafizəsi ilə yandırılması onu sübut etdi ki, bu aksiyalar məqsədyönlüdür. Qərbin, xristian aləminin təhrikçi, islam aləmini təxribata çəkmə cəhdidir”. Bu barədə ”Şərq”ə açıqlamasında Milli Cəbhə Partiyasının sədr müavini, ilahiyyatçı Tural İrfan deyib.**

Ekspert bildirib ki, gizli gedən ”səlib yürüşü”nün təzahürü olaraq bu kimi faktlar çox olacaq: ”Qərb din faktorundan uzun illərdir ki, islam dünyasını zəiflətmək üçün istifadə edir. Əslində müsəlman ölkələrində radikal dini qrupların yaranmasını ya Qərb özü təşkil edir, ya da himayə edir. Məqsəd müsəlmanları radikal, qəddar, terrorçu kimi qələmə verərək müsəlman dövlətinə təzyiqi artırmaq, istismar üçün zəmin hazırlamaqdır. Bunun nümunəsini hələ qərinələr öncə Əfqanıstanda, İraqda, Suriyada, Yəməndə görmüşük və görürük. Bu gün Türkiyənin böyük söz sahibinə və hesablaşılan gücə çevrilməsi, dünyada gedən proseslərə təsiri, xüsusən islam aləminin idarəçiliyini az qala ələ alması Qərbdə böyük narahatlıq yaradır. Odur ki, başda Türkiyə olmaqla aparıcı müsəlman dövlətini qıcıqlandıraraq provakasiyaya sürükləmək istəyirlər. Yəni zəmin yaradırlar ki, bir müsəlman da ”Tövrat”ı, yaxud ”İncil”i yandırsın. Dərhal səlibçi Qərb hərəkətə keçsin. Necə ki, Ermənistanın illərlə müsəlman ocaqlarını dağıtması, məscidləri təhqir etməsi Qərbdə heç bir narahatlıq yaratmadı, əksinə, Avropada qərar qəbul etdilər ki, guya, Azərbaycan hökuməti Qarabağda xristian dini abidələrini dağıdıb və s. Bu kimi faktlar Qərbin ikili standartlarından, qərəzindən, xristian təəssübkeşliyindən və səlibçi təfəkküründən xəbər verir”.

T.İrfan əminliklə vurğulayıb ki, müsəlmanlar heç zaman ”İncil”i yandırmayacaqlar. Çünki islam dininə görə əvvəlki kitabların hamısı da Quran kimi müqəddəsdir: ”Müsəlmanlar ”Tövrat”ı və ”İncil”i də öz kitabları sayırlar. Habelə Quranda xristianların peyğəmbəri İsanın haqqında kifayət qədər ailələr var. Həzrət Məryəmin adına surə və təriflər var. Ortaq peyğəmbərlər Adəm, Nuh, İbrahim haqqında surətlər var. Əslində Quranı yandıran xristianlar öz peyğəmbərlərini də yandırmış sayılırlar. Quranın yandırılması proqramı Qərbdə hazırlanmış məqsədyönlü təxribatın hissəsidir və islam aləmini qıcıqlandırıb bəzi qrupların çılğınlığına ümid edərək yeni terrora zəmin yaratmaqdır. Bu da gizli deyil ki, ABŞ Prezidenti Cozef Baydenin 1915-ci il hadisələri ilə bağlı Türkiyəyə qarşı ”soyqırımı” ifadəsi işlətməsi təsadüfi deyil. Qərb dövlətləri nə qədər üzdə fərqli maraq və münasibətlər sərgiləsələr də batində xristian təəssübkeşliyi nöqtəsində birdirlər və eyni amala doğru addımlayırlar”.

**Analitikin fikrincə, bu kimi problemlərin həlli, məkrli qüvvələrin ifşası naminə başda qardaş Türkiyə olmaqla bütün müsəlman dövlətləri qəti mövqe ortaya qoymalıdır:** ”Belə təxribatların təşkilinin qarşısını almaqdan ötrü Qərb dövlətləri ilə danışıqlara başlamalıdırlar. Əks halda belə təxribatlarla özləri yaratmış olduqları, adda müsəlman olan radikal fiqurları, qrupları cəlb edərək terror törədə və onun da məsuliyyətini müsəlmanların üzərinə ata bilərlər. Ona görə dərhal bu məsələyə müsəlman ölkələri öz sərt reaksiyasını gecikdirməməlidirlər”.

**İsmayıl Qocayev**

# Hələ ki, alternativ bazarlar yoxdur

## Azərbaycan öz qeyri-neft ixracatının bir hissəsini Rusiyaya ixrac etməkdə davam edəcək




**Bakıda Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası dövlət komissiyasının 20-ci iclası işinə başlayıb. İclasda Azərbaycan tərəfini Baş nazirin müavini Şahin Mustafayev təmsil edir. Rusiya nümayəndə heyətinə isə Rusiya Baş nazirinin müavini Aleksey Overçuk rəhbərlik edir. Tərəflər iqtisadi əməkdaşlığın kompleks məsələsini nəzərdən keçirəcəklər.**

Qeyd edək ki, aprelin 20-21-də Rusiya Energetika Nazirliyinin təşkilatçılığı ilə yanacaq-energetika məsələləri üzrə Azərbaycana üçüncü Rusiya biznes missiyası keçirilib. İlk iki missiya 2021-ci ilin iyul və noyabr aylarında baş tutub, bunun nəticəsində konkret razılaşmalar icra olunur.

**İqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, Rusiya və Azərbaycan arasında 2021-ci ildə ticarət dövriyyəsi təqribən 3 milyard dollara yaxın olub:** ”2 milyard dollara ölkəmiz Rusiyadan mal və məhsul alıb. Təxminən 950 milyon, yəni 1 milyard dollara qədər isə Azərbaycan ora ixrac edib. Rusiya bizim qeyri-neft sektorunda, əsasən də kənd təsərrüfatı məhsulları yönündə əsas ixracat bazarlarımızdan biridir. Bu da kifayət qədər hər iki ölkənin münasibətlərinə təsir edən amillərdəndir. İndiki durumda adıçəkilən dövlətlər arasında iqtisadi əlaqələrin genişləndirilməsində müəyyən problemlər də var. Rusiyaya qarşı qoyulan sanksiyalar, bank köçürmələri ilə bağlı məsələlər də obyektiv olaraq, öz təsirini göstərir. Amma bütün bunlara baxmayaraq, müxtəlif istiqamətlər üzrə əməkdaşlıq etmək mümkündür. Azərbaycan öz qeyri-neft ixracatının bir hissəsini Rusiyaya ixrac etməkdə davam edəcək. Bunu hələ ki, əvəz edə biləcək alternativ bazarlar yoxdur. Ona görə də effektiv əməkdaşlığın davam etdirilməsi istiqamətində müəyyən addımlar atılacaq. Çox güman ki, keçirilən görüşlər də buna hesablanıb. Nəticədə Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsinin perspektivləri böyük ehtimalla müzakirə olunacaq. Amma Rusiyaya qarşı tətbiq olunan sanksiyaların da müəyyən əngəllər, problemlər də yarada biləcəyini Azərbaycan tərəfi mütləq nəzərə almalıdır”.

**Sücayət Mehti**

# Ürək parçalayan görüntü

## Narınc Rüstəmova: "Biz mərkəz olaraq o uşağa təmənnasız yardım göstərməyə hazırıq"




**İnsanların, xüsusən də uşaqların ən yaxşı dostu heyvanlardır. Əksər azyaşlılar pişiyə, itə həvəsli olurlar, oynamaq istəyirlər, hətta onlarla söhbət də edirlər. Ta ki, valideyn gəlib, onları heyvanlardan uzaqlaşdırana qədər.**

Bəzən elə ana-ata olur ki, uşaqları qorxutmaq üçün məsələn, yatmaları, küçədən evə qayıtmaları üçün "it gələcək, səni dişləyəcək" tipli cümlələrlə, vahimə dolu səslərlə onları heyvanlardan belə də mək mümkündürsə, diksindirirlər. Belə olduğu halda, əlbəttə, növbəti dəfə uşaq haradasa it görəndə ondan çəkinəcək, hər ehtimalı nəzərə alaraq, yerdən bir daş götürəcək, heyvanlar da öz növbəsində təhlükəsizlikləri üçün onlara cumacaq. Təbii ki, bunun tam əksi olan insanlar da mövcuddur. Hətta bəzi hallarda sahibsiz küçə itlərini güllələyərək, öldürürlər. Buna cəmiyyətin bir hissəsi qarşı çıxır, tənqid edilər. Heyvanların da canlı olduqları üçün öldürülmələrinin yanlışlığını bildirirlər. Doğrudur, küçə itlərinin böyüklərə, kiçiklərə hücum etdiyi xəbərlərinə də rast gəlirik. Sosial şəbəkələrdə şahidi olduğumuz Fərqanənin başına gələn hadisə kimi. Sosial platformada 5 yaşlı Babayeva Farqananın burnunu, başının iki tərəfini, əlinin üstünü quduz itin dişləməsi olayı yayılıb. Azyaşlının gecə-gündüz ağrılardan yata bilmədiyi, nəfəs almağının çətinliyi və əməliyyata ehtiyacı olduğu barədə məlumatlar öz əksini tapıb. Təbii ki, bir insanı, üstəlik, uşağı itin dişləməsini düşündükdə ürəkağrıdıcı mənzərə göz önünə gəlir. Belə səbəblərdən qəzəblənib, itin öldürülməsini haqlı sayırlar. Amma küçə heyvanları yaşayaraq da, zərərsizləşdirilə bilərlər. Öldürmək çıxış yolu deyil. İlk olaraq, özümüzü, övladlarımızı insaflı, rəhmli olmağa çağırmalıyıq.

**Klinik-psixoloq, "Narınc" Psixologiya Mərkəzinin təsisçi rəhbəri, Psixologiya Elmi-Tədqiqat İnstitutunun "Yaş və İnkişaf Psixologiyası Şöbəsi"nin kiçik elmi işçisi Narınc Rüstəmova "Şərq"ə açıqlamasında bildirib ki, uşağın yaşadığı hadisə onun üçün böyük bir psixoloji travmadır:** "Təsirindən uzun müddət çıxa bilməz. Posttravmatik stres özünü sonradan daha çox büruzə verməyə başlayır. Yaxşı olardı ki, azyaşlı xəstəxanadan çıxdıqdan sonra mütləq psixoloji dəstək alsın. Hətta uşağın valideynləri bu yazını oxuyursa, bütün səmimiyyətimizlə bir mərkəz olaraq, ona təmənnasız köməklik göstərməyə hazırıq. Bu travma uşağın irəli zamanlarda nəinki bütün heyvanlardan, hətta insanlardan da qorxmasına, ünsiyyətdən qaçmasına, təşvişə düşmə, yuxu və qida pozuntularının yaranmasına səbəb ola bilər".

**Psixoloq görüntülərin ürək parçalayan olduğunu vurğulayıb:** "Əgər heyvan vaksin olunubsa, yəni quduz deyilsə və bu formada uşağa zərər veribsə, mütləq hadisələrin öncəki gedişatı araşdırılmalıdır. Zoopsixologiyada heyvanın kiməsə, nəyəsə zərər verdiyi hallar daha çox özünü qorumaq üçün, qarşı tərəfdən təzyiq gördüyü zaman baş verir. Ona görə bir çox vaxt özünü müdafiə məqsədilə şiddətə əl atan insanlara şiddət heyvani instinktdir, deyirik. Adətən valideynlərdə də günah olur. Uşaqlara o heyvan pisdir, murdardır, görsən, daş at, qışqır, yaxın getmə, harada rastlaşsan, öldür, vəhşidirlər, sənə qurd düşər, mikrob bulaşar və s. kimi qorxu, aqressiya aşılayırlar. Bu da özünü uşaqlarda müxtəlif cür göstərir. Bəziləri qorxur, qaçır, fobiyaları yaranır, bəzilərində isə özümü qorumalıyam instinkti ilə aqressivlik formalaşır. Heyvanları çayda, suda boğmaq, daşlamaq, qovlamaq, əzmək, quyruğunu dartmaq, tutub, zülm vermək və s. hərəkətlər müşahidə edirik. Heyvanlar da təhlükəsizliklərini təmin etmək üçün bu şəkildə hücumlar edə bilir. Qarışqanı və ya həşəratları, quşları tapdayan, qolunu, ayağını qoparan uşaqlar görürük. Hər şey bax, bu xırdalıqlardan başlayır. Heç bir xəstəliyi olmayan heyvanın səbəbsiz yerə insanı belə parçalaması ağlasığmazdır. Həyat bumeranqdır. Ötürdüyümüz neqativ enerji dönüb, dolaşıb, mütləq bizi yenidən tapır. Odur ki, heyvanlarla münasibətdə, bunu övladlarımıza izah edərkən diqqətli olmalıyıq. Uşaqlara insanlara, heyvanlara, əşyalarına, hətta geyimlərinə qarşı belə mərhəmətli olmağı öyrətməliyik".



*"Bu travma uşağın irəli zamanlarda nəinki bütün heyvanlardan, hətta insanlardan da qorxmasına səbəb ola bilər"*

**Sücayət Mehti**

## Elvin Ağayevin səhhəti daha da pisləşib




**Aktyor Elvin Ağayevin səhhəti daha da pisləşib.** Bu haqda Axşam.az-a açıqlamasında sənətçinin həyat yoldaşı Elvina Atakişiyeva deyib. O bildirib ki, hazırda Elvinin müalicəsi davam etsə də, durumu getdikcə pisləşir.

Qaraciyər sirrozundan əziyyət çəkən aktyora təcili qaraciyər köçürülməlidir. Bunun üçün isə ona 90 min manat lazımdır. E.Atakişiyeva məbləğin toplanması üçün yardım istəyib.


**Elanlar**

*Bildiriş*

"Ağdaş Avtovağzal" Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 07 iyun 2022-ci il tarixdə (Ağdaş rayon Maşad kəndində) saat 10:00-da səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyində duran məsələlər:
1. 2021-ci ilin illik maliyyə hesabatının təsdiqi və bununla əlaqədar məsələlər.
2. Avtovağzal ASC-də 500 m2 torpağın satılması ilə əlaqədar məsələ.

**"Ağdaş Avtovağzal" Açıq Səhmdar Cəmiyyəti adından: Orucov B.İ.**

Tofiqli Mehriban Zaur qızına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biləsuvar şəhər sakini Əmənli Babək Füzuli oğlunun adına verilmiş "Əmək kitabçası" itdiyi üçün etibarsız sayılır.

Xocalı rayon Kosalar kənd sakini Rzayev Nofəl Barat oğluna məxsus Veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ələkbərov Əli Museyib oğluna məxsus evin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


# Tikinti materiallarının qiyməti bahalaşır

## Bu vəziyyət yeni tikililərin qiymətinə də təsir edəcək



**Azərbaycanda tikinti materiallarının bir qisminin Rusiya və Ukrayna idxalından asılı olduğu, hazırda həmin materialların ölkəyə gətirilməsində müəyyən problemlər olduğu bəllidir. O cümlədən, bu prosesin adıçəkilən məhsulların qiymətinə təsiri də danılmaz faktdır.**

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri Elxan Bəşirov "Report"a bildirib ki, Rusiya-Ukrayna müharibəsi qlobal bahalaşmaya təkan verən səbəblərdəndir:

"Eyni zamanda, Rusiyadan gələn məhsulların da qiymətləri qalxıb. Bu proses əvvəlcə ajiotaj xarakterli oldu. Sonradan səngiməyə başladı, ancaq əvvəlki vəziyyətə qayıtmadı".

E.Bəşirov qeyd edib ki, bu bahalaşma hələ bir müddət də davam edəcək. O, prosesin neftin qiyməti ilə əlaqəsindən də danışıb:

"Neftin qiyməti qalxıb. Məlum olduğu kimi, bu, bütün məhsullara təsir edir. Ona görə hesab edirəm ki, yaxın gələcəkdə tikinti bazarının əvvəlki səviyyəyə qayıdacağını gözləməyə dəyməz. Onun üçün dövlətimizin tikinti materiallarının istehsalını təşviq etməsinə ümid etməliyik. Gömrük siyasətinə, vergi yükləmələrinə yenidən baxmaq və bu cür məsələləri tənzimləmək lazımdır".

**Tikinti materiallarının bahalaşmasının təsirlərindən "Şərq"ə danışan əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirib ki, tikinti qiymətləri birbaşa yeni tikililərin qiymətinə də təsir edəcək:**

"Bu, qiymətin maya dəyərindən irəli gəlir. Təəssüf ki, tikinti şirkətləri də qiymət artımına uyğun qiymətləri artırırlar. Bu, yeni inşa olunan çoxmənzilli binalara şamil olunur. Həmçinin fərdi evlərə də aid edilir. Yeni bazara çıxan mənzillər təmirli vəziyyətdə satışa çıxır, təbii ki, onların da qiyməti də yüksək olacaq. Qiymət artımı davam etdiyi halda bu hal qaçılmazdır. Ucuzlaşma yalnız qiymətlərin düşməsi kimi hallarda baş verə bilər".

**Çimnaz**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-**MÜHASİBAT** (2 AY)

-**Mobil telefonların təmiri** (3 ay)

-**KOMPYUTER** (1-3 AY)

-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## Çatdırmaq olmur

### Hərbi travmalarla işləyən xüsusi psixoloqlar hazırlanmalıdır



*"Hardasa 20-30 nəfər real hərbi travma ilə işləməyi bacaran mütəxəssis var. Bununla bağlı daha geniş iş aparılmalıdır"*

**44 günlük Vətən müharibəsindən sonra qazilər arasında psixoloji sarsıntı keçirənlər heç də azlıq təşkil etmir.**

Belə ki, ötən gün Qusar rayonunun Ənіq kəndində Vətən müharibəsi qazisi Feyruz Qəhrəmanov intihar edib. O, özünü ağacdan asaraq, həyatına son qoyub. Psixoloji problemlər yaşayan müharibə iştirakçısı, məhz bu səbəbdən canına qəsd edib. Ənіq kəndinin icra nümayəndəsi Baba Məcidov bu barədə məlumat verib. "YAŞAT Fondu tərəfindən onun müalicəsi üçün 7300 manat pul köçürülmüşdü. Davamlı olaraq müalicə edilsə də, nəticəsi olmadı. Biz icra nümayəndəliyi olaraq onunla daim görüşürdük, psixoloji söhbətlər aparırdıq", - icra nümayəndəsi deyib.

Baba Məcidovun sözlərinə görə, 1999-cu il təvəllüdlü Feyruz subay olub:

"Çox mehriban, yaxşı ailəsi var. Müalicə aldığı müddətdə kənd təsərrüfatı işləri ilə məşğul idi, həmişə at belində olardı. Allah rəhmət eləsin. Heyif, onun kimi gözəl bir insan həyatını itirdi".

**Psixoloq Azad İsazadə Vətən müharibəsi iştirakçısının psixoloji problemlər səbəbindən həyatına son qoymasını "Şərq"ə şərh edib. O bildirib ki, çıxış yolu üçün mütəxəssislər yetişdirilməlidir:**

"Ümumiyyətlə, problem var və bu, davam edəcək. Biz illərlə bu problemlə qarşılaşacağıq. Bu məsələnin çıxış yolu ümumi reabilitasiya proqramının qəbul olunmasıdır. Hər psixoloq bu işlə məşğul ola bilməz. Hərbi travma ilə işləyən xüsusi psixoloqlar hazırlanmalıdır. Düzdür, mən də daxil olmaqla, bir sıra psixoloqlar müharibə vaxtı və postmüharibə dövründə bu işlə məşğul olduq. Amma çatdırmaq olmur. Çünki hərbi travma ilə məşğul olan psixoloq sayı azdır. Hardasa 20-30 nəfər real hərbi travma ilə işləməyi bacaran mütəxəssis var. Bununla bağlı daha geniş iş aparılmalıdır". Azad İsazadə sonda qeyd edib ki, bununla paralel olaraq, anlamalıyıq ki, qazilərin sosial və maddi problemləri də öz həllini tapmalıdır.

**ÇİMNAZ**

(Əvvəli səh: 8-də)

**Böyürtkən həm də sinir sistemi üçün çox faydalıdır. Stresi azaldır, beyin-qan dövranını yaxşılaşdırır, hafizəni gücləndirir, yuxunu normallaşdırır.**

Kal meyvələrini qurudub çay kimi dəmləyib şəkər xəstəliyinə qarşı dərman kimi içirlər. Bundan başqa böyürtkənin yarpaqları və kal meyvələrini açıq günəşli havada qurudub, çay kimi dəmləyərək uşaqlarda tez-tez baş verən qarın



# Böyürtkənin faydalarını saymaqla bitməz

ağrılarına, ishala qarşı büzüşdürücü və antiseptik dərman kimi qəbul edirlər. Böyürtkənin tam yetişmiş meyvələri zərif işlədici təsirə malikdir. Onun köklərini qurudub xırdalayaraq ondan 1 çay qaşığı 1 stəkan qaynar suya təkərək 30-40 dəqiqə dəmdə saxlandıqdan sonra soyudub qarın ağrısına qarşı - ishal və dizenteriya zamanı içirlər.

Yetişməmiş meyvələrindən qora suyu hazırlayıb, istahartırıcı kimi yeməkdən qabaq hər dəfə bir xörək qaşığı içmək məsləhətdir. Bunu belə hazırlayırlar: təzə dərilən meyvələrin şirəsinin içinə bir az reyhan qatır, sonra bu qarışığı şüşə bankalara tökmək 1- 2 həftə saxlayırlar.

Böyürtkənin yetişmiş meyvələrindən hazırlanan mürəbbə soyuqdəyməyə qarşı təbii tərlədici vasitə olduğu kimi, qurudulmuş meyvələrindən və yarpaqlarından da çay hazırlayıb, soyuqdəyməyə qarşı tərlədici dərman kimi istifadə olunur.

**Aparılan araşdırmalar böyürtkənin yaddaş zəifliyindən ishala qədər bir çox xəstəliyə qarşı dərman olduğunu ortaya çıxarıb**

Qurudulmuş köklərini suda bişirib vərəm xəstəliyinə qarşı dərman kimi işlədirlər. Böyürtkən yarpaqlarını çay kimi dəmləyərək boğaz ağrısı zamanı dezinfeksiyaedici dərman kimi qarqara edirlər. Bundan başqa yarpaqlarını inək yağında bişirib, yanıq zamanı məlhəm kimi tətbiq edirlər.

Aparılan araşdırmalardan böyürtkənin yaddaş zəifliyinə qarşı da müalicəvi təsir göstərdiyi məlum olub. Bütün bunlarla yanaşı böyürtkən antioksidantlarla zəngindir, böyürtkənin meyvəsi qan təzyiqini nizamlayır, görmə qabiliyyətinə müsbət təsir edir, ayaqlardakı şişliyi aradan qaldırır, ağız, dil, diş və diş əti iltihablarına xeyirlidir. Kökünü qaynadıb suyunu içdikdə isə qandakı şəkərin miqdarını aşağı salır.

**Məlahət**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun i müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1184



## Dünyanın ən qeyri-adi kinoteatrı

İnsanlar özlərini evdəki kimi hiss edəcək



**İsveçrədə açılan unikal kinoteatr dünyanın ən qeyri-adi kinoteatrlarından biri hesab olunur.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, kinoteatr kreslolarla deyil, rahat çarpayılarla təchiz edilib. Dizaynerlərin fikrincə, belə interyer insanlara özünü evdəki kimi hiss etdirəcək.

Zala daxil olan tamaşaçılara birdəfəlik başmaqlar verilir. Hər tamaşadan sonra isə yorğan və balış üzlükləri dəyişdirilir.

## Təyyarədə eşitdiyiniz səsin sahibi üzə çıxıb

Aparıcı sosial media hesabında görüntülər paylaşıb



**Səyahət zamanı sərnişinlərin "Buta Airways"in təyyarələrində Azərbaycan və İngilis dillərində səslənən elanların oxunduğu şəxsin kimliyi üzə çıxıb.**

"Bizim.media" xəbər verir ki, bu şəxs AzTV-nin keçmiş aparıcısı Nurlana Cəfərovadır.

Belə ki, aparıcı sosial media hesabında bununla bağlı görüntülər paylaşıb.

*Qeyd edək ki, Nurlana pandemiya ərəfəsində ailə qurub. Onun bu nikahdan bir oğlan övladı var.*

## Dubayda fotossessiya etdiriblər

Kamerunlu futbolçu ilə azərbaycanlı həyat yoldaşı xöşbəxt günlərini yaşayır



**Ötən il ailə həyatı quran "Keşlə"nin sabiq kamerunlu futbolçusu Anatole Abanq ilə azərbaycanlı həyat yoldaşı Adelia Hacıyevadan xəbər var.**

**Bir neçə gündür Birləşmiş Ərəb Əmirliklərində olan cütlük kamera qarşısına keçib.**

**Onlar yeni doğulan qız övladları ilə Dubayda fotossessiya etdiriblər. Adelia ilə Anatolenin şəkillərini fotoqraf Zeynal Məmmədli lentə alıb.**

***Qeyd edək ki, cütlüyün qızı bu il martın 1-də dünyaya gəlib. Futbolçu adı dəyişdirilərək "Şamaxı" edilən "Keşlə" klubunu ötən ilin sonunda tərk edərək Birləşmiş Ərəb Əmirliklərinin Al Bataeh kollektivinə transfer olunmuşdu.***

## Eser Yenenler xəstəxanalıq oldu



**Türkiyəli aktyor Eser Yenenler xəstəxanalıq olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, 38 yaşlı aktyor appendisitdən əməliyyat keçirib.**

**Eserin həyat yoldaşı Berfu Yenenler sosial şəbəkədə paylaşım edərək onun vəziyyətinin yaxşı olduğunu bildirib.**

## ABŞ-da gənc atlet intihar edib



**ABŞ-dan olan atlet Sara Şultse intihar edib.**

**Bu barədə 21 yaşlı idmançının yaxınları açıqlama veriblər.**

**Onlar Şultsenin psixoloji problemlərinin olduğunu bildiriblər. Gənc atlet orqanlarının donor kimi istifadəsini vəsiyyət edib. Valideynləri bununla bağlı qızlarının şərəfinə fond yaradıldığını açıqlayıb.**

***Qeyd edək ki, Sara Şultse milli komandanın heyətində kros yarışlarında iştirak edirdi.***

## 18 yaşlı repçi 6 milyona villa aldı





**Amerikalı gənc reper Bhad Bhabie özünə yeni villa alıb.**

**Olay xəbər verir ki, 18 yaşı tamam olan kimi "OnlyFans" açan Bhad 1 ildə 52 milyon dollar qazanıb.**

**O, bu məbləğdən Floridada 6.1 milyon ( təxminən 10 milyon manat) dollara malikanə sahibi olub.**



# Uşaqların qorxuları...

Valideynlər bəzi məqamlarda daha diqqətli olmalıdır



**Uşaqlar ən çox nədən qorxur və hansı qorxuları normal qarşılanmalıdır? Türkiyəli klinik psixoloq Fatma Çelik bu haqda danışıb. "Şərq" "NTV.com.tr"yə istinadən həkimin valideynlərə məsləhətlərini təqdim edir.**

"N.Life"ə müsahibəsində psixoloq bildirir ki, uşaqların qorxuya qarşı davranışları körpələrin 4 aylığından təqib edilir. Uşaqların bəzi qorxuları bəlli bir yaş dövrü üçün normal sayılır. Çünki qorxu sayəsində ətrafda baş verənləri anlamağa başlayır və onu necə dəf etməyi öyrənirlər. Məsələn, içində isti çay olan stəkanı, fincanı tutmağa çalışan körpənin əli yandıqda bu hərəkəti ikinci dəfə təkrarlamağa ürək etmir. Anlayır ki, stəkan, fincan təhlükəlidir. Körpə yaşlarda ani təpkilər, fiziki dəstəyin itirilməsi ilə 8 aylığında yad insanlara qarşı yaranan qorxu və artıq 5 yaşında xəyali dost axtarışları normal hallardır. Uşaqların təxminən 40 faizində eyni qorxu hissi yaşandığı müəyyənləşib. Bunlar ana-atanı itirmək, bədənə zərər dəyməsi, uşaq oğruları, heyvanlarla bağlıdır və bu qorxular adətən qaranlıqda və yatarkən artır. Məsələn, 9 yaşlı bir uşaq topla oyun zamanı topun ona dəyəcəyindən qorxar, hürən itdən və ya "evə oğru girər", düşüncəsiylə evdə tək qalmaqdan qorxa bilər. Bu qorxular ətraflarında baş verənlərdən də qaynaqlanır. Qorxular başa gələn hadisələr nəticəsində də ortaya çıxır. Ailədə ata-ana arasında dava-dalaş olursa, evdə qışqırıq, səs-küy yaranırsa, uşaq məktəbə gedəndə müəllimin yüksək səslə və ya əsəbi şəkildə danışmasından, hansısa şagirdə acıqlanmasından,

***Türkiyəli psixoloq deyir ki, uşaqları qorxduqlarına görə ələ salmaq qətiyyən yolverilməzdir***

tənbeh etməsindən qorxa bilər. İbtidai sinif şagirdlərinin məktəbə getdikləri ilk günlər ağlaması da bəlkə bununla bağlıdır. Uşağa elə gəlir ki, müəllim məhz onun üstünə qışqırır, buna görə də stres keçirir, qorxur. Uşaqlar arasında ən geniş yayılmış qorxu qaranlıqdan qorxmaq və yatmamaqdır. Yatmaq vaxtı yetişdikdə uşaq yatmamaq üçün dərinirsə, deməli, qorxulu yuxular görür, qaranlıqdan qorxur. Bu qorxu uşağın hansısa qorxulu filmə baxması, oradakı mənfi xarakterin yaddaşında qalmasıyla da ola bilər. Valideynlər bu məsələdə diqqətli olmalı və uşağın nəyə, hansı filmə, diziyə baxdığını daim təqib etməlidir. Belə hallar uşaqlarda otaqda tək qalmaqdan, tək yatmaqdan tutmuş, ata-ana hara gedirsə, arxalarınca ağlamalarınadək bir sıra qorxular yaradır. Uşaqlar daim ata-ananın müdafiəsinə möhtacdır və onlardan xilaskar olmalarını gözləyir. Buna görə də valideynlər daim uşaqlarla ünsiyyətdə olmalı və qorxuların əsassız olduğunu, təhlükə olarsa, onları mütləq qoruyacaqlarını anlatmalıdırlar. Çünki uşaqlar ilk növbədə valideynlərini, özlərindən yaşca böyük bacı-qardaşlarını nümunə sayır və onlara hər kəsdən daha artıq inanırlar. Uşaqları qorxduqlarına görə ələ salmaq qətiyyən yolverilməzdir. Yaşda böyük olanlara gülməli, sadə görünən məsələlər uşaqlarda böyük qorxu yarada bilir. Bu səbəbdən uşaqların hisslərinə hörmət etmək, onları dinləyib, inam qazandırmaq vacibdir. Uşağın yatdığı otaqda gecə lampası qoya bilərsiniz, eyni zamanda yatmazdan öncə ona maraqlı, gözəl sonluqla bitən hekayə anlatmaq olar. Beləliklə uşağın beynində müsbət fikirlər dolaşacaq və o, rahat yatacaq.

**Məlahət Rzayeva**



# Böyürtkənin faydalarını saymaqla bitməz

**Böyürtkən kolları çiçəkləməyə başlayır. Bir neçə gündən sonra böyürtkən çiçəklərinin ətri hər tərəfə yayılacaq. Böyürtkən möcüzəvi bitkilərdən biridir. Moruq cinsinə aiddir. Görünür, budaqları tikanlı, dalayıcı olduğundan adına "böyrü tikanlı" deyilib. Xalq arasında bu adla da tanınıb. Bu bitkinin 250-dən çox növü var.**

Yabanı halda Asiya, Avropa və Amerika qitələrində geniş yayılıb. Qərbi Sibir, Qazaxıstan, Orta Asiya və Qafqazda yetişir. Azərbaycanın bütün zonalarında böyürtkən kolluqları var. Ölkəmizdə 15 növü yayılıb. Böyürtkən may ayından başlayaraq, avqusta qədər çiçəkləyir. Eyni vaxtda kollarda həm təzə açılmış çiçək və həm də yetişmiş meyvə olur. Çiçək açdıqdan təxminən 1 ay sonra meyvəsi yetişir. Qırmızı, qara, al-qırmızı və sarı meyvələri olur. Azərbaycanda irimeyvəli, gec yetişən və quraqlığa çox davamlı böyürtkən növləri yetişir. Böyürtkənin meyvəsi təzə halda yeyilir. Ondan likör, şərab, spirtli içki, mors, şirə, kompot, şərbət, mürəbbə, marmelad və cem hazırlanır.

Böyürtkənin faydalarını saymaqla bitməz. Müalicəvi və pəhrizi əhəmiyyətə də malikdir. Tərgətirici və sidikqovucu kimi istifadə edilir. Meyvəsinin tərkibində şəkər (qlükoza, fruktoza və saxaroza), pentazon, üzvi turşular (alma, limon, salisil və s.), C və B qrupu vitaminləri, pektin və karotin maddələri vardır. Yabanı halda bitən böyürtkəndə şəkər, üzvi turşular, aşı, pektin, boyayıcı maddələr, C vitamini və karotin miqdarca daha çoxdur. Böyürtkən qan azlığında, avitaminozda, ürək zəifliyində, eləcə də xroniki mədə xəstəliklərində çox faydalıdır.

***Aparılan araşdırmalar böyürtkənin yaddaş zəifliyindən ishala qədər bir çox xəstəliyə qarşı dərman olduğunu ortaya çıxarıb***

Azərbaycanın xalq təbabətində böyürtkən bitkilərinin meyvələrindən, yarpaq və köklərindən bir sıra xəstəliklərə qarşı tətbiq olunur. Qurudulmuş meyvələrindən və yarpaqlarından çay kimi dəmləyib hipertoniya xəstəliyində və sinə ağrılarında [qrudnaya jaba] istifadə edilir. Eyni məqsədlə təzə dərilmiş meyvələrindən şərbət və ya mürəbbə hazırlanıb yeyilir. Aparılan araşdırmalar böyürtkənin yaddaş zəifliyindən ishala qədər bir çox xəstəliyə qarşı dərman olduğunu ortaya çıxarıb. Meyvəsi ilə yanaşı, böyürtkənin çiçəyinin də diabet və böyrək daşları üçün xeyirli olduğu müəyyənləşdirilib. Suyunun sıxılaraq içilməsi ishal xəstəliyində, qurudulmuş yarpaqları isə ağızdakı yaralar üçün faydalıdır. Bitki antosianlar və antioksidantlarla olduqca zəngindir. Qan təzyiqini nizamlayır, ayaqlardakı şişləri aradan qaldırır, ağız, dil və diş əti iltihablarına qarşı faydalı təsir göstərir. Göz zəifliyinə xeyirli təsir göstərir, maddələr mübadiləsini sürətləndirir. Aspirini təbii əvəz edən bitkidir və orqanizmə zərər vermir.

*(Davamı səh: 7-də)*

**Məlahət**

## Yerin altından sərvət çıxdı

Mağaralarda ötən əsrdən qalma, tozbasmış avtomobillər, motosiklet, velosipedlər də tapılıb





**İtaliyanın Napoli şəhərində Monte di Dio səmtində aparılan arxeoloji tədqiqat zamanı yer altında bir-biriylə əlaqəli tarixi yollar, tunellər, mağaralar kəşf edilib.**

Amma ictimaiyyəti heyrətləndirən təkcə bunlar deyil. "Şərq" "ahaber"ə istinadən bildirir ki, mağaralarda ötən əsrdən qalma, tozbasmış avtomobillər, motosiklet, velosipedlər də tapılıb. Bunlar niyə mağaralara toplanıb? Avtomobillər Piazza del Plebiscito mağarasının 150 metr dərinliyində tapılıb. Köhnə avtomobillər, motosiklet və velosipedlərin tapıldığı yerə Borbonica qalereyası adı verilib. Mağaranın bu hissəsi 1853-cü ildə II Ferdinand zamanında inşa edilmiş 1022 metrlik tunelin ərazisinə daxildir. Arxeoloqlar bi fikirdədir ki, tunellər İtaliyada inqilab küləklərinin əsdiyi zamanlarda əsgərlərin və atların gizlicə Kral sarayına keçidi üçün tikilib. Tunellərdə sarayın su ehtiyatını təmin etmək üçün su anbarları da var. II Dünya müharibəsi illərində də bu tunel və mağaralardan istifadə edilib. Bu mağaralar Napolinin evsiz sakinləri üçün 1950-ci illərədək sığınacaq rolunu oynayıb. Sevgililərin də görüş yeri olub. 1970-ci illərdə isə avtopark kimi istifadə edilib. 2005-də təsadüfən yenidən kəşf edilib. 2012-də isə II Dünya müharibəsinin iştirakçısı olmuş, artıq 90 yaşını haqlamış Tononi Persico adlı italyan bir arxeoloqa müharibə günlərində gizləndikləri tunellər və mağaralardan danışıb. Bununla da mağaralar yenidən gündəmə gəlib. Və turistlərin ziyarət etdiyi məkana çevrilib.

**Məlahət**

## Qadınlar koronavirusdan tamamilə sağalmır

Mütəxəssislər 2320 nəfərin məlumatlarını təhlil ediblər



**Lester Universitetinin alimləri qadınların koronavirusdan tam sağalma ehtimalının 33% daha az olduğunu müəyyən ediblər.**

Medicina.az xəbər verir ki, müvafiq tədqiqat "The Lancet Respiratory Medicine" jurnalında dərc olunub.

Mütəxəssislər klinikalarda COVID-19-dan müalicə olunan 2320 nəfərin məlumatlarını təhlil ediblər. Onların vəziyyəti xəstəxanadan buraxıldıqdan dərhal sonra, 5 ay və 1 ildən sonra qiymətləndirilib. Tədqiqat nəticəsində məlum olub ki, 6 aydan az müddətdə xəstələnənlərin yalnız dörddə biri özünü infeksiyadan əvvəlki kimi hiss etməyə başlayır. 1 il sonra onların sayı bir qədər artıb - 28,9%.

Bildirilib ki, qadınlarda tam sağalma ehtimalı 33% aşağıdır. Obez insanlar iki dəfə, süni nəfəs aparatına ehtiyacı olanlar isə 58% daha az.

"Effektiv müalicə olmadan uzanan COVID-19 çox yayılmış yeni uzunmüddətli vəziyyətə çevrilə bilər", - ingilis həkimləri qeyd edib.